www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 16 yanvar 2025-ci il Cümə axşamı № 8 (8618) Qiymәti 60 qәpik

**Xəbər**

**GMO məhsulları yeyək, yeməyək - fərqlənmə tələbi**

yazısı səh.13-də

**Gündəm**

**"Qara qutu"dakı "fərqli məlumatlar" - Rusiya yenə öz ampluasında...**



**Hərbi ekspert:** "Moskva şantaj ritorikasından əl çəkib beynəlxalq hüququ əsas tutaraq addımlar atmalıdır"

yazısı səh.4-də

**"İran qoşunları Zəngəzura girməyə hazırlaşır" blefi - Bakıdan reaksiya**

yazısı səh.7-də

**Şuşa və Xocalıya daha 28 ailə köçürüldü**

yazısı səh.4-də

**Ərəb nazirin Ankaraya gəlişinin gizlinləri - Ərdoğanın Dəməşq səfərinə hazırlıq**

yazısı səh.11-də

**"Ermənistan hakimiyyəti Azərbaycana iki güzəştə gedib" - Abramyan**

yazısı səh.3-də

**PKK-nın İrandakı lideri məhv edildi**

yazısı səh.11-də

**Seçki ayında bələdiyyələr birləşir - nələr dəyişəcək...**

yazısı səh.12-də

**Gənclər süni intellektin əsirinə çevrilə bilər - təhlükə**

yazısı səh.15-də

**Qazaxıstandan unikal örnək - korrupsinerlərin reyestri yaradılır**

yazısı səh.12-də

**Bakıda yağış, rayonlarda isə qar yağacaq**

yazısı səh.13-də

**Sumqayıtda iki yeniyetmə qardaş 17 yaşlı oğlanı öldürdü**

yazısı səh.14-də

# ABŞ QAFQAZI QAN ÇANAĞINA ÇEVİRİR - SÜLHƏ TƏHDİD

Bayden gedərayaq bölgəni qarışdırır; Ermənistana xüsusi sərhəd mühafizə qrupu göndərilməsi açıq təxribatdır; Moskva Paşinyanı cəzalandıracaqmı - Bakıdan baş verənlərə reaksiya




yazısı səh.5-də

# BP-də nə baş verir - qlobal proseslərin təsiri, yoxsa...

**İlham Şaban:** "Şirkətin bu vəziyyətə düşməsi indiki deyil, bundan əvvəlki rəhbərliyin fəaliyyətinin nəticəsidir"

yazısı səh.10-da



*Vüqar İsgəndərov:*

**"ABŞ öz maraqlarının təmini üçün bütün yollara əl atır"**

yazısı səh.8-də



**Əsgərimiz odlu silahla özünü öldürdü**

yazısı səh.6-da



*Məleykə Abbaszadə:*

**"Yaxın gələcəkdə imtahanlar rəqəmsal formada keçiriləcək"**

yazısı səh.12-də



## Tikintisinə icazə tələb olunmayan obyektlərin sayı artıb

**Mövcud tikinti obyektinin torpaq sahəsində (tikinti sahəsi istisna olmaqla), yaxud fərdi yaşayış evinin həyətyanı torpaq sahəsində elektrik mühərrikli nəqliyyat vasitələri üçün yerləşdirilən elektrik enerjisi doldurucularının tikintisinə icazə tələb olunmayacaq.**

APA-nın xəbərinə görə, bu, Prezident İlham Əliyevin təsdiqlədiyi Şəhərsalma və Tikinti Məcəlləsinə dəyişiklikdə əksini tapıb.



## AZCON-un nizamnamə fondu açıqlandı

**Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinin (AZCON) nizamnamə fondu 10 milyon manat məbləğində müəyyənləşib.**

Musavat.com xəbər verir ki, bu, Prezident İlham Əliyevin bu gün təsdiqlədiyi qurumun Nizamnaməsində öz əksini tapıb.

Sənədə əsasən, AZCON-un əmlakı nizamnamə fondundan, təsisçinin verdiyi digər əmlakdan, dövlət müəssisələrinin ödədiyi vəsaitdən, habelə fəaliyyətindən əldə olunmuş gəlirdən, ianələrdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan edilməyən digər vəsaitdən formalaşır.

AZCON öz əmlakından yalnız bu nizamnamədə müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir.

AZCON qanunla nəzərdə tutulmuş vergiləri və digər məcburi ödənişləri ödədikdən sonra AZCON-un, onun idarə, filial, nümayəndəliklərinin və təsərrüfat cəmiyyətlərinin, habelə tabeliyindəki digər qurumların fəaliyyətindən əldə edilmiş vəsait üzərində müstəqil sərəncam vermək hüququna malikdir.

AZCON-un mənfəəti ölkə Prezidentinin qərarı ilə dövlət büdcəsinə köçürülə bilər.

AZCON-un məhsullarının (malların, işlərin, xidmətlərin) qiymətləri tənzimlənən qiymətlərə aid deyildir.

Dövlət müəssisələrinin AZCON-a ödədikləri vəsaitdən AZCON-un bu nizamnamədə nəzərdə tutulmuş səlahiyyətlərini həyata keçirmək üçün istifadə olunur.

# Azərbaycan və Braziliya arasında aqrar əməkdaşlığa dair sənəd təsdiqləndi



**Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Braziliya Federativ Respublikasının Kənd Təsərrüfatı və Heyvandarlıq Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu təsdiq edib.**

Musavat.com xəbər verir ki, bununla bağlı dövlət başçısı yeni fərman imzalayıb.

Xatırladaq ki, sənəd 2024-cü il sentyabrın 13-də Kuyaba şəhərində imzalanıb.

Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Kənd Təsərrüfatı Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etməli, Xarici İşlər Nazirliyi zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Braziliya hökumətinə bildiriş göndərməlidir.

## Bu ərazilərdə qaz olmayacaq

**Ağdaş rayonunun bir hissəsinin qaz təchizatında fasilə yaranacaq.**



Bu barədə Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) "Azəriqaz" İstehsalat Birliyindən məlumat verilib.

Bildirilib ki, "Qaz İxrac" İdarəsinin sifarişi əsasında "Şəmsabad" qazpayıcı stansiyasında mövcud qaz tənzimləyici qurğunun baypas xətti üzərində yeni tənzimləyici qurğunun quraşdırılması ilə bağlı yanvarın 16-da saat 10:00-dan etibarən işlər başa çatanadək "Şəmsabad 2-ci xətt" ölçü qovşağından qaz təchizatının dayandırılması planlaşdırılır.

Təmir işləri aparılan müddətdə Ağdaş rayonunun bir hissəsinin (Ağdaş şəhərinin bir hissəsi, rayonun 19 yaşayış məntəqəsi, 6 qeyri-yaşayış) qaz təchizatının dayandırılması işləri başa çatdıqdan sonra qaz təchizatının bərpası planlaşdırılır.

Binəqədi rayonunun Sulutəpə və Xocəsən qəsəbələrində də qaz xətlərinin yerinin dəyişdirilməsi məqsədilə 16.01.2025-ci il saat 10:00-dan etibarən qaz təchizatı dayandırılacaq.

"Azəriqaz"dan verilən məlumata görə, qaz təchizatı dayandırılan müddətdə Sulutəpə, Xocəsən və Çiçək qəsəbələrində yaşayan istehlakçıların qaz təchizatında müvəqqəti fasilə yaranacaq.



## DİN-dən Wotsap qruplarında yayılanlarla bağlı xəbərdarlıq

**Wotsap qruplarında DİN adından yayılan xəbərdarlıq məzmunlu mətnlər feykdir.**

Musavat.com xəbər verir ki, bu barədə DİN-in mətbuat xidməti məlumat yayıb.

"Bununla bağlı tərəfimizdən hər hansı məlumat paylaşılmayıb. Naməlum şəxslərin hansısa yoxlama, sorğu aparması ilə bağlı polis orqanlarına hər hansı məlumat daxil olmayıb", - məlumatda deyilir.



## Ərdoğan Suriya XİN başçısını qəbul edib

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Suriyanın xarici işlər naziri Əsəd Həsən Şeybanini qəbul edib.**

APA xəbər verir ki, bu barədə Türkiyə mediası məlumat yayıb.

Görüşdə Türkiyə-Suriya əlaqələri, Suriyanın yenidən qurulması və regional inkişaflar müzakirə edilib.



## Bu məktəblərdə telefon qadağan edilib

**Ölkə üzrə 300-dən çox ümumi təhsil müəssisəsində tətbiq edilən şagird davranış qaydalarına əsasən, təhsilalanların tədris prosesi zamanı xüsusi hallar istisna olmaqla, telefon və digər ağıllı cihazlardan istifadəsi qadağan olunub.**

Bu barədə Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Zenfira Sevdimalı məlumat paylaşıb.

O bildirib ki, şagird davranış qaydalarının əhatə etdiyi müəssisələrin əhatə dairəsi genişləndiriləcək, daha çox məktəbdə bu qaydalar tətbiq ediləcək:

"Xüsusi hallar istisna olmaqla, ümumi təhsil müəssisələrində dərs prosesi zamanı ağıllı telefonlar, ağıllı saatlar və digər bu tip elektron cihazların istifadəsi isə tövsiyə olunmur. Bu və bu kimi digər istiqamətlərdə mütəmadi olaraq Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi tərəfindən digər aidiyyəti qurumlarla da birlikdə məktəblərdə monitorinq və yoxlamalar aparılır, müvafiq profilaktik və maarifləndirmə tədbirləri həyata keçirilir. Məktəb daxilində və məktəbdənkənar ərazilərdə davranış qaydalarına əməl edilməsinin vacibliyi diqqətə çatdırılır, təlim-tərbiyə prosesinə uyğun olmayan hallara qarşı maarifləndirmə işi aparılır". (Yenisabah.az)

# Ermənistan Azərbaycanın tələblərini yerinə yetirsə... - təhlil

## Həmsədrlik institutunun de-yure ləğv olunacağı haqda Ermənistandan və ATƏT-ə sədrlik edən ölkədən reaksiyalar gəldi

**“Paşinyan nə qədər suverenlikdən danışırsa, bir o qədər Ermənistanın suverenliyi geri çəkilir”. “Yeni Müsavat” bildirir ki, bu fikirlər Ermənistanın “Pastinfo” saytında dərc edilmiş məqalədəndir. Yazıda deyilir ki, Azərbaycanın istəkləri böyükdür. “Məsələ Qarabağla bitməyəcək. Britaniyanın dəstək verdiyi Azərbaycan indiki Ermənistan hökumətinin buxovlarını getdikcə daha da bərkitməkdə davam edəcək”. Sayt qeyd edib ki, Bakı Minsk Qrupunun buraxılması istəyini tezliklə həyata keçəcək.**

Ermənistan parlamentinin müxalif deputatı Tiqran Abramyan da rəsmi İrəvanın Bakının iki şərt-tələbinə müsbət cavab verdiyini deyib. O bildirib ki, Bakının tələblərindən biri Minsk Qrupunun ləğvi ilə bağlı idi və baş nazir Nikol Paşinyan bir neçə gün öncə bunu icra etməyə hazır olduğunu təsdiqləyib. İkinci tələb isə Ermənistan Konstitusiyasının dəyişdirilməsi və oradan Azərbaycana ərazi iddialarının çıxarılmasıdır ki, Abramyanın fikrincə, bu haqda da bu gün ədliyyə naziri danışıb. Nazir bildirib ki, hökumət yeni konstitusiyanın mətnini seçkilərə qədər hazır vəziyyətə gətirmək vəzifəsini qoyub.

Rəsmi Bakı ATƏT-in Minsk Qrupunun de-yure mövcudluğunun sülhə maneə yaratdığını bildirib. Prezident İlham Əliyev ötən ilin sonlarında Rusiya mətbuatına müsahibəsində deyib ki, ATƏT-in Minsk Qrupu artıq çoxdandır fəaliyyətsizdir. “Amma formal olaraq mövcuddur və bizim məsələmiz ondan ibarətdir ki, əgər Ermənistan Qarabağı Azərbaycanın bir hissəsi olaraq tanıyıbsa, Minsk Qrupu isə Qarabağ məsələsinin həlli üçün yaradılıbsa, onda o nəyə lazımdır?”, - dövlət başçısı bildirib. Minsk Qrupunun həmsədrlərindən olan Rusiya da strukturun ləğv edilməsinin tərəfdarı olduğunu bəyan edib. Qeyd edək ki, Ermənistanın baş naziri Nikol Paşinyan da Minsk Qrupunun ləğv edilməsinin tərəfdarı olduğunu bildirib. Rəsmi İrəvan qurumun ləğvi üçün ATƏT-ə müraciət etməyi düşündüklərini açıqlayıb. Yanvarın 1-dən Finlandiya ATƏT-ə sədrlik etməyə başlayıb. Modern.az sözügedən məsələ ilə bağlı Finlandiya Xarici İşlər Nazirliyinə (XİN) sorğu ünvanlayıb. Finlandiya XİN-dən bildirilib ki, çoxdan gözlənilən sülh sazişinin imzalanması Cənubi Qafqaz regionunda sabitlik və təhlükəsizliyə doğru mühüm addım ola bilər: “Bu prosesi dəstəkləmək üçün 2025-ci ildə ATƏT sədri kimi Finlandiya təşkilatın ixtiyarında olan müxtəlif vasitələrdən, o cümlədən ATƏT-in təhlükəsizliyin hər üç ölçüsündə etimadın möhkəmləndirilməsi tədbirləri və tematik müdaxilələrdən istifadə etməklə Azərbaycan və Ermənistanla əlaqə saxlamağa hazırdır”. Açıqlamada qeyd olunur ki, Finlandiya davamlı həll yolu tapmaq üçün tərəflərlə, o cümlədən ən yüksək siyasi səviyyədə dialoqu davam etdirməyə sadiqdir.



**Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri Çingiz Qənizadə** “Yeni Müsavat”a açıqlamasında qeyd etdi ki, de-fakto Minsk Qrupu yoxdur və keçmiş həmsədr ölkə Rusiya da bu formatın çoxdan dəfn olunduğunu açıqlayıb. Hüquq müdafiəçisi əlavə etdi ki, sadəcə, bu institutun de-yure ləğvi məsələsi qalır: “Hər iki tərəf sülh prosesini müzakirə etdikləri üçün keçmiş münaqişənin həllində vasitəçi olmuş Minsk Qrupuna ehtiyac qalmayıb. Əgər Minsk Qrupu vasitəçi kimi heç bir fayda verməyibsə, bundan sonra heç töhfəsi ola bilməz. Azərbaycan tələb edir ki, Ermənistan da Minsk Qrupunun ləğvi üçün ATƏT-ə rəsmi müraciət etsin. Məncə, bu məsələdə razılığa gəlinsə, tez ibr zamanda hədəfə nail olmaq mümkündür. Ermənistan prosesi uzatmaqla heç nə əldə edə bilməyəcək. Hesab edirəm ki, Ukrayna münaqişəsinin yaratdığı reallıqlar fonunda keçmiş həmsədr ölkələrin bir araya gəlməsi mümkün deyil. Hətta Tramp Putinlə danışıqlar aparmağa başlasa belə, bunu Minsk Qrupunun reabilitasiya fürsətləri kimi dəyərləndirmək olmaz”. Ç.Qənizadə inanır ki, Minsk Qrupunun de-yure ləğvi uzaqda deyil və bu ilin içərisində reallaşması mümkündür.

**Hüquq müdafiəçisi Xəzər Teyyublu da bildirdi ki, Minsk Qrupu, prezidentin dediyi kimi, gorbagor olub və 30 il münaqişənin həllində heç bir rol oynamayan, tərəf saxlayan bir institut arxivə göndərilməlidir:** “Ermənistan bu məsələdə dünənə kimi deyirdi ki, sülh sazişindən sonra Minsk Qrupu ləğv oluna bilər. Amma indi Paşinyanın ritorikasında dəyişiklik müşahidə olunur, tezliklə bu qrupun ləğv edilməsini istisna etmir. Düzdür, bütün hallarda bir ermənidir, üstəlik, Paşinyan bu gün bir söz danışır, sabah başqa mövqedən çıxış edir, amma yenə də ümid edək ki, rəsmi İrəvan bu xətti davam etdirəcək. Ümumiyyətlə, Ermənistan hakimiyyəti Azərbaycanın tələblərini gec, ya tez həyata keçirir. O baxımdan, erməni analitiklər haqlıdırlar - prezident Əliyev nə deyirsə, erməni baş nazir Paşinyan onu da edir”.

**X.Teyyublu bildirdi ki, tərəflər Minsk Qrupu məsələsini aşmaqla etimad mühitinin yaradılmasından daha da irəli gedə bilərlər:** “Azərbaycan Ermənistana sülh təklif edir, barışıq əli uzadır. Bundan yaxşı nə ola bilər ki? Ona görə də erməni rəsmiləri və erməni xalqı bizdən gələn mesajları düzgün oxumalıdır”.

❑ **Emil SALAMOĞLU, “Yeni Müsavat”**

# “Ermənistan hakimiyyəti Azərbaycana iki güzəştə gedib” - Abramyan



**“Paşinyan Azərbaycanın tələblərinə boyun əyərək artıq iki güzəştə gedib və bu güzəştlər siyahısının nə qədər genişlənəcəyi yaxın vaxtlarda bəlli olacaq”.**

Musavat.com xəbər verir ki, bu sözlər Ermənistan parlamentinin revanşist deputatı Tiqran Abramyan tərəfindən səslənib.

“Birincisi, bir neçə gün əvvəl Paşinyan Minsk Qrupu formatını ləğv etmək niyyətində olduğunu, indi isə ədliyyə naziri hakimiyyətin seçkilərə qədər yeni konstitusiyanın mətnini hazırlamaq vəzifəsi qoyduğunu bəyan edib.

Nazirin bu mövzu ilə bağlı uğursuz və yersiz söz oyununa getmədən, sadəcə olaraq, xatırlatmaq istərdim ki, əvvəllər hakimiyyət bu prosesi 2027-ci ilə qədər başa çatdırmaqdan danışırdı, lakin indi mövcud vəziyyəti nəzərə alaraq müəyyən bir müddət təyin etmək məcburiyyətindədir. Bununla belə, onların Bakını qane edib-etmədiyi hələ də qaranlıq qalır", - deyə Abramyan bildirib.

❑ **Musavat.com**



# İsrail HƏMAS-ın atəşkəs təklifini qəbul etdiyi iddialarını təkzib edib

**İsrailin baş naziri Benyamin Netanyahunun ofisi HƏMAS-ın Qəzzada atəşkəs təklifini qəbul etdiyi iddialarını təkzib edib.**

APA xəbər verir ki, bu barədə baş nazirin ofisi məlumat yayıb.

“Məlumatların əksinə olaraq, HƏMAS hələ də razılaşmaya öz cavabını verməyib”, - baş nazirin ofisi qeyd edib.

Yeni Müsavat
N 8 (8618) 16 yanvar 2025

# Şuşa və Xocalıya daha 28 ailə köçürüldü




**Şuşa, Xocalı şəhərlərinə və Xocalının Ballıca kəndinə 28 ailə (135 nəfər) köçürülüb.**

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin nümayəndələrinin də iştirakı ilə ailələrə mənzillərin açarları təqdim edilib.

Şuşa və Xocalı şəhərlərinə və Xocalının Ballıca kəndinə növbəti köç karvanı yanvarın 15-də yola salınıb.

APA xəbər verir ki, Şuşa, Xocalı şəhərlərinə və Xocalının Ballıca kəndinə 28 ailə (135 nəfər) köçürülüb.




Şuşa şəhərinə köçürülən 2 ailə (8 nəfər), Xocalı şəhərinə 6 ailə (25 nəfər), Xocalı rayonunun Ballıca kəndinə - 20 ailə (102 nəfər) əsasən Bakı, Sumqayıt, Gəncə şəhərləri, eləcə də respublikanın müxtəlif rayonlarında müvvəqəti məskunlaşan şəxslərdir.

Qeyd edək ki, indiyədək Şuşa şəhərinə 371 ailə (1396 nəfər), Xocalı şəhərinə 52 ailə (204 nəfər), Xocalı rayonunun Ballıca kəndinə isə 68 ailə (373 nəfər) köçürülüb.



# "Qara qutu"dakı "fərqli məlumatlar" - Rusiya yenə öz ampluasında...

## Hərbi ekspert: "Moskva tərəfi şantaj ritorikasından əl çəkərək, beynəlxalq hüququ əsas tutub addımlar atmalıdır"

**Çeçenistan ərazisində vurularaq zədələnən, Qazaxstanın Aktau hava limanı yaxınlığında qəzaya uğrayan AZAL-a məxsus təyyarənin "qara qutu"ları Braziliyadan Qazaxıstana aparılıb. Bu barədə məlumatı "RİA Novosti" yayıb. Bildirilib ki, "qara qutu"lar qəza ilə bağlı yekun rəyin verilməsi üçün hadisənin səbəblərini araşdıran komissiyaya təhvil verilib.**

"Qara qutu"lar Qazaxıstana təhvil veriləndən sonra Britaniya təyyarə qəzasının hərtərəfli və müstəqil araşdırılması işində Braziliya, Azərbaycan və Qazaxıstanı dəstəklədiyini açıqlayıb. AZƏRTAC xəbər verir ki, bu barədə Britaniya parlamentinin Mühafizəkarlar Partiyasının üzvü Vendi Mortonun "Azərbaycan Hava Yolları" aviaşirkətinə məxsus təyyarənin dekabrın 25-də qəzaya uğraması ilə bağlı Britaniya hökumətinə ünvanladığı sualın cavabında bildirilib. Sualda Britaniyanın qəza ilə bağlı beynəlxalq araşdırmanın potensial mahiyyətini necə qiymətləndirdiyi soruşulub. Suala cavab olaraq Britaniya Xarici İşlər Nazirliyində Avropa, Şimali Amerika və Dənizaşırı Ərazilər üzrə dövlət naziri Stiven Douti bu hadisədə həlak olanların ailələrinə başsağlığı ifadə edib. O qeyd edib ki, Britaniya rəsmiləri Azərbaycan və Qazaxıstan rəsmiləri ilə bu məsələyə dair sıx təmaslarını davam etdirir.

"Qara qutu"ların qəzanı araşdıran komissiyaya verilməsi ərəfəsində Rusiya Xarici İşlər Nazirliyi qəribə məlumat açıqlayıb. Rusiya xarici işlər naziri Sergey Lavrov yanvarın 14-də keçirdiyi illik mətbuat konfransında Moskva və Bakının istənilən məsələləri həll edə biləcəyini, buna misal olaraq İkinci Qarabağ müharibəsində səhvən Rusiya helikopterinin vurulmasını, Azərbaycan təyyarəsinin qəzaya uğramasını göstərib. Sergey Lavrov jurnalistləri AZAL-ın təyyarə qəzası ilə bağlı araşdırmanın nəticələrini gözləməyə və faciə haqqında məlumat yaymamağa çağırıb. O, həmin məlumatların "qara qutu"ların məlumatları ilə faktiki olaraq təsdiqini tapmadığını söyləyib. Sergey Lavrov bildirib ki, Aktauda qəzaya uğrayan təyyarənin "qara qutu"ları çox maraqlı məlumatlar verib. Onun sözlərinə görə, təhqiqat başa çatana qədər gözləmək vacibdir və "qara qutu" məlumatları hazırda yayılan versiyaların çoxunu dəstəkləmir. Sergey Lavrov Azərbaycan tərəfinin təyyarə qəzasının araşdırılmasında Rusiya tərəfinin iştirakını dəstəkləməsini Moskvanın qiymətləndirdiyini əlavə edib.

Rusiya XİN rəhbərinin bu açıqlamasının arxasında hansı məqsədlər dayanır? Hansı fərqli məlumatlardan söhbət gedə bilər? Rusiya ampluasına sadiq qalaraq, izi azdırmağa çalışır, yoxsa fərqli məlumatlar həqiqətən aşkara çıxa bilər?

**Hərbi ekspert Rövşən Məhərrəmov "Yeni Müsavat"a deyib ki, həqiqət birdir və ondan ibarətdir ki, Azərbaycan Hava Yollarına məxsus mülki təyyarə beynəlxalq hava limanına enəndə Rusiyaya məxsus "Pantsir"lə vurulub**: "Bütün faktlar göstərir ki, təyyarə vurulub və bu səbəbdən qəzaya uğrayıb. Rusiya isə bu həqiqəti qəbul etməkdən yayınmağa çalışır. Bir tərəfdən də deyirlər ki, guya həmin vaxt havadan təhlükə olduğundan "Kovyor" əməliyyatı həyata keçirilib. Əgər "Kovyor" əməliyyatı elan olunmuşdusa, hava məkanı bağlanmalı, despetçerlər AZAL-a məxsus təyyarənin pilotlarına bu barədə məlumat verməli idilər ki, təyyarə təhlükəli zonaya daxil olmasın. Rusiya tərəfi isə bunu etməyib, təyyarə pilotuna "Kovyor" əməliyyatı barədə məlumat verməyib. Sergey Lavrovun açıqlaması reallıqla uzlaşmır. Həqiqət birdir - AZAL-a məxsus təyyarə vurulub! Həqiqət birdir ki, təyyarə Rusiyanın hava məkanında vurulub. Həqiqət budur ki, vurulmuş təyyarəmizin Rusiya ərazisində olan və Qroznı hava limanı yaxınlığındakı hava limanlarına enmək icazəsi verilməyib. Həqiqət budur ki, Rusiya özü etiraf edir ki, Qroznıda Azərbaycan təyyarəsi vurulmazdan 10 dəqiqə öncə Dağıstan, Mahaçqala təyyarə qəbul edib, təyyarə havaya qalxıb. Əgər "Kovyor" əməliyyatı həyata keçirildisə, niyə bu barədə Azərbaycan tərəfinə məlumat verilməyib? Sergey Lavrov yaxşı olardı ki, bu suallara aydınlıq gətirsin".

**Hərbi ekspert deyib ki, Rusiya tərəfi vurulmuş mülki təyyarəyə görə kompensasiya ödəməlidir:** "Bu haqda danışsınlar. Azərbaycan təyyarəsi Rusiya ərazisində vurulub və Rusiya beynəlxalq qanunlara görə kompensasiya ödəməlidir. Digər bir məqam da odur ki, idarəetməni Qroznı hava limanındakı dispetçer deyil, Rostov dispetçeri həyata keçirib. Biləsək ki, təyyarə vurulub və qəzalı durumdadır, yaxınlıqdakı hava limanına deyil, Aktauya yönləndirib. Sergey Lavrovun açıqlaması onu deməyə əsas verir ki, Rusiya tərəfi təyyarənin vurulması məsuliyyətini üzərilərinə götürmək niyyətində deyil, müvafiq olaraq kompensasiya da ödəmək istəmirlər. Halbuki təyyarənin Rusiya istehsallı "Pantsir"lə vurulmasını ekspertlər də təsdiq edib. Yəni "qara qutu"lardan nə çıxmasından asılı olmayaraq Azərbaycan Hava Yollarına məxsus mülki təyyarə Rusiya ərazisində, Rusiya istehsallı silahlardan atəş açılmaqla vurulub və buna görə də Rusiya məsuliyyət daşıyır".

**Hərbi ekspert Sergey Lavrovun Azərbaycanın Rusiyaya məxsus hərbi helikopteri Ermənistan ərazisində vurmasını xatırlatmasının da yersiz olduğunu deyib:** "Azərbaycan 44 günlük Vətən müharibəsindən sonra Ermənistan ərazisində Rusiyaya məxsus hərbi helikopteri vurub və buna görə üzr istəyib, kompensasiya ödəyib, hərbi helikopterin dəyərini ödəyib. Rusiya tərəfi Azərbaycanın mülki təyyarəsini öz ərazisində vurub və bunu etiraf edib kompensasiya ödəməkdən yayınır. Təyyarəmizi Rusiya tərəfi vurmasaydı belə, təhlükəsizliyi təmin etməli olan Rusiya tərəfidir. Hər bir halda Rusiya tərəfi üzr istəməli, kompensasiya ödəməli və təyyarənin dəyərini verməlidir. Bunu beynəlxalq hüquq tələb edir. Rusiya tərəfi şantaj ritorikasından əl çəkib beynəlxalq hüququ əsas tutub addımlar atmalıdır".

❑ **Elşən MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

# ABŞ Qafqazı qan çanağına çevirir - sülhə təhdid

## Bayden gedərayaq bölgəni qarışdırır; Ermənistana xüsusi sərhəd mühafizə qrupu göndərilməsi açıq təxribatdır; Moskva Paşinyanı cəzalandıracaqmı - Bakıdan baş verənlərə reaksiya

**Yanvarın 14-də Vaşinqtonda Ermənistan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq haqqında Xartiyanın imzalanması mərasimi olub. Ermənistan tərəfindən sənədi xarici işlər naziri Ararat Mirzoyan, ABŞ tərəfindən isə dövlət katibi Antoni Blinken imzalayıb.**

Sənədə görə, Ermənistan Respublikası və Amerika Birləşmiş Ştatları dostluq münasibətlərinin və strateji tərəfdaşlığın əhəmiyyətini təsdiqləyirlər.

"Onlar iki ölkənin mənafeyi naminə tərəfdaşlığı dərinləşdirməyə və geniş qarşılıqlı prioritetlər çərçivəsində əməkdaşlığı genişləndirməyə çalışırlar.

İki demokratik ölkə arasında bu əməkdaşlığın ümumi dəyərlərə və ümumi maraqlara əsaslandığını vurğulayırlar. Bunlara demokratiya və iqtisadi azadlığın təşviqi, suverenliyin və ərazi bütövlüyünün qorunması, qanunun aliliyinin, insan hüquqlarına və əsas azadlıqlarına hörmətin gücləndirilməsi, innovasiya və texnoloji tərəqqinin dəstəklənməsi, enerji təhlükəsizliyinin gücləndirilməsi daxildir.

Onlar diplomatik, iqtisadi, enerji, yüksək texnologiyalar, təhsil, elm, mədəniyyət, hüquq, müdafiə və təhlükəsizlik sahələrində əlaqələri gücləndirmək üçün qarşılıqlı istəklərini vurğulayırlar", - sənəddə qeyd edilib.

Mirzoyanın ABŞ səfəri zamanı həmçinin məlum olub ki, ABŞ gələn həftə sərhəd təhlükəsizliyini gücləndirmək məqsədilə Ermənistana xüsusi sərhəd mühafizə qrupu göndərəcək.

Bu barədə ABŞ dövlət katibi Entoni Blinken ermənistanlı həmkarı Ararat Mirzoyanla görüşündə məlumat verib.

"Bu istiqamətdə müvafiq işləri gücləndirəcəyik", - Blinken bildirib.

ABŞ-Ermənistan yaxınlaşması bununla da bitməyəcək. Xarici işlər naziri Ararat Mirzoyan strateji tərəfdaşlıq haqqında sənədin imzalanması mərasimində bəyan edib ki, Ermənistan və ABŞ nüvə enerjisi sazişi üzrə danışıqlara başlayır. O, tərəflərin "Saziş 123" kimi tanınan nüvə əməkdaşlıq sazişi üzrə danışıqlara başladıqlarını deyib: "Bu, nüvə enerjisindən dinc məqsədlərlə istifadə sahəsində əməkdaşlıq üçün çərçivə təmin edəcək və nüvə enerjisinin dinc yolla inkişafına, təhlükəsizlik və nüvə silahlarının yayılmaması ilə bağlı ən yüksək standartlara sadiqliyimizi vurğulayacaq".

Cənubi Qafqazdakı vəziyyətə toxunan Mirzoyan bildirib ki, "Ermənistan regionda sabit və davamlı sülhün əldə edilməsinə verdiyi töhfəyə görə ABŞ-a minnətdardır".

Qeyd edək ki, Ermənistanda Rusiya texnologiyasına əsaslanan Metsamor AES fəaliyyət göstərir. Rusiya ölkədə ikinci AES tikintisini təklif etmişdi. Ermənistanın ABŞ-la imzaladığı saziş ölkənin bu sahədə Rusiya ilə əməkdaşlıqdan uzaqlaşmaq niyyətində olduğunu göstərir.




Belə bir vaxtda Rusiyadan ilginc ittihamlar səslənib. "ABŞ Cənubi Qafqazda destabilləşdirici rol oynayır", - deyə Kremlin mətbuat katibi Dmitri Peskov Ermənistan və ABŞ-ın Vaşinqtonda Ermənistanla strateji tərəfdaşlıq haqqında müqavilə imzalayacağına münasibət bildirərkən deyib.

Peskovun dediyinə görə, ABŞ yeni ölkələri özünün arxasınca sürükləməyə çalışır.

Kremlin sözçüsü vurğulayıb ki, Rusiya Ermənistanla münasibətlərini yüksək qiymətləndirir.

"ABŞ daxil olmaqla, bütün ölkələrlə münasibətləri inkişaf etdirmək Ermənistanın suveren hüququdur", - deyə Peskov əlavə edib.

O da maraqlıdır ki, ötən həftə ABŞ Dövlət Departamenti Ermənistan xarici işlər nazirinin bəyanatlarına münasibət bildirərkən qeyd eləmişdi ki, Vaşinqtonun belə bir sənədin imzalanması ilə bağlı "hazırda nəzərdən keçirməli və ya elan edəcəyi heç nə yoxdur"...

Bayden Administrasiyasının səlahiyyət müddətinin başa çatmasına bir neçə gün qalmış Ermənistanla strateji sənədin imzalanması Trampa "miras" qoymaq məqsədi daşıyır: ABŞ-ın yeni hakimiyyətinin Ermənistana münasibətdə sələfindən fərqlənəcəyi, Cənubi Qafqazda daha çox Azərbaycana önəm verəcəyi proqnozlaşdırılır. Trampın Baydendən fərqli olaraq, Bakı-İrəvan arasında balans xəttini qoruması belə Ermənistanın "əlini zəiflədəcək" amildir.

Strateji tərəfdaşlıq sənədinin imzalanması ilə yeni administrasiyanın üzərinə Ermənistanı dəstəkləmək öhdəliyini qoymaq istəyirlər, hərçənd Trampın buna nə qədər əməl edəcəyi sual altındadır. O da istisna deyil ki, Mirzoyanla Blinkenin əsas müzakirə mövzularından biri yeni administrasiyanın sənədə sadiq qalmasını təmin etməyin yollarıdır və bu prosesdə erməni diasporu/lobbisinin aktivlik nümayiş etdirəcəyi gözləniləndir. Strateji sənəd Trampın Bakı-İrəvan xəttində balansı saxlamaq imkanlarını zəiflədir. Yeni administrasiya Cənubi Qafqazla bağlı siyasətində ya bu sənədi əsas götürə, ya da Azərbaycanla da eyni razılaşma əldə edə bilər. Əks təqdirdə, Trampın regiondakı siyasəti effektsiz olacaq. "ABŞ Cənubi Qafqazda sabitləşdirici rol oynamayıb. Rusiya Ermənistanla bütün istiqamətlərdə əməkdaşlığı davam etdirməyə hazırdır". Bunu RF Prezidentinin mətbuat katibi Dmitri Peskov strateji tərəfdaşlıq sənədini şərh edərkən deyib. Beləliklə, Bayden administrasiyası Paşinyanı sona qədər müdafiə etdiyini ortaya qoydu. Buna qədər də ABŞ Ermənistana müxtəlif istiqamətlərdə dəstək olub: 5 aprel görüşünün nəticələri, amerikalı hərbçilərlə birgə təlimlər, verilən dəstək bəyanatları...

**Siyasi analitik, "Yeni Müsavat"ın redaktoru Elşad Məmmədli** hesab edir ki, ABŞ-ın gələn həftə sərhəd təhlükəsizliyini gücləndirmək adı ilə Ermənistana xüsusi sərhəd mühafizə qrupu göndərmək qərarı Bayden hökumətinin gedərayaq Cənubi Qafqazı qarışdırmaq üçün səpdiyi növbəti "toxumlardan" biridir: "Avropa İttifaqının Ermənistanın Azərbaycanla sərhəd bölgəsində yerləşdirmiş olduğu müşahidə missiyasının əhatəsini genişləndirmək qərarının ardınca ABŞ-ın Ermənistana sərhəd mühafizə qrupu göndərmək planı birmənalı olaraq təxribatdır. Faktiki olaraq bölgəyə "desantlar" yollayır.

Hələlik bu qrupun hansı sərhəd zonasına yerləşdiriləcəyi dəqiq bildirilməsə də, bu addım Azərbaycanla Ermənistan arasında sülh prosesini növbəti dəfə tormozlamaq cəhdi ilə yanaşı, bütövlükdə Qafqazda sabitliyi pozmağa hesablanıb.

Təbii ki, bu məkrli plana Azərbaycan adekvat reaksiya verəcək və heç şübhəsiz ki, qısa zamanda dövlət görəvliləri konkret mövqe bildirəcəklər.

Proseslərə geniş - Qafqaz maraqları, bölgədə gedən nüfuz savaşı (Gürcüstan-Qərb qarşıdurması, paralelində Ermənistanın Qərbin ruporuna çevrilmək kursu götürməsi) prizmasından yanaşdıqda isə çanaq Ermənistanın başında çatlayacaq.

Amerika NATO timsalında Ukraynada, Rusiya yaxınlığında əsgəri qüvvə yerləşdirmək istədi, nəticə bəllidir: Ukrayna əraziləri işğal və ilhaq olundu, rəsmi Kiyev acı tale yaşayır.

Daha əvvəl isə Gürcüstan Qərbə qucaq açanda rus tankları Tiflis yaxınlığınadək gəlmişdi. Amerikanın "xeyir-duası" ilə növbədə Ermənistandır".

Maraqlı bir xronologiya var: 19 dekabr 2008-ci ildə (Krımın işğalından öncə) ABŞ Ukrayna ilə, 10 yanvar 2009-cu ildə ABŞ Gürcüstanla, 10 noyabr 2021-ci ildə yenə ABŞ Ukrayna arasında oxşar saziş imzalanıb. Nəticələri bəllidir.

Ermənistanın ABŞ-la imzaladığı sənəd Rusiya və İran üçün təhdid kimi də şərh edilir. Yanvarın 20-dən sonra Vaşqintonun bu siyasəti davam etsə, Tehran və Moskva İrəvana təzyiqi adekvat şəkildə artıracaqlar.

Odur ki, bu saziş Ermənistanı xüsusilə Rusiya-ABŞ arasındakı qarşıdurmanın tam poliqonuna çevirəcək. İrəvan "ikinci "Ukrayna" ola bilərmi?

**Professor Fikrət Yusifov "Yeni Müsavat"a şərhində bildirdi ki, Ermənistan bu gün çox təhlükəli siyasi gedişlər edir. Rusiyanın Cənubi Qafqazda Azərbaycan torpaqlarında "qurub yaratdığı" bir dövlətin belə "şıltaqlıqlarına" nə qədər dözəcəyi sualı indi daha ciddi şəkildə səslənir**: "Rusiya rəsmiləri Ermənistanla ABŞ arasında strateji tərəfdaşlıq barədə bağlanmış müqaviləni çox soyuqqanlı şərh edirlər. Sergey Lavrov deyir ki, əsas olan müqavilə deyil, əsas olan budur ki, o müqavilədə nə var və onlar necə həyata keçiriləcək. Rusiya prezidentinin köməkçisi Peskov da sazişi sakit bir formada şərh edib və deyib ki, Ermənistan Cənubi Qafqazda bizim müttəfiqimizdir, bizim üçün önəmli olan budur.

Rusiya rəsmilərinin bəyanatlarından göründüyü kimi, Rusiya Ermənistanın başqa dövlətlərlə belə müqavilələr bağlamasına onun suveren hüququ kimi "baxır" və ermənilərin bu addımlarında heç bir "qəbahət görmürlər". Əslində Rusiya Ermənistan hökumətinin Baydenin hakimiyyətdən getməsinə bir neçə gün qalmış belə bir saziş imzalamasına çox pis baxır. Ermənistanın KTMT-də fəaliyyətini "dondurmasını" da Rusiya rəhbərliyi ironiya ilə şərh edir.

Bu gün xarici ticarət dövriyyəsinin 40%-dən çoxu Rusiyanın payına düşən, sərhədləri Rusiya hərbçiləri tərəfindən qorunan, əmlakının böyük bir payı Rusiyaya aid olan, Rusiyadan ucuz enerji resursları alaraq yaşayan Ermənistanın bu bölgədə Rusiyanın müəyyən etdiyi oyun qaydalarından çıxması ona böyük təhlükələr yarada bilər. Ermənistan hakimiyyətinin bunun fərqində olmadığını demək mümkün deyil. Lakin bu gün Paşinyan hökuməti bu riskləri göz önünə alıb, öz bildiyi yolla gedir. Bu gedişlərin sonunun heç də yaxşı olmayacağı daha inandırıcı görünür. Rusiya qədər aqressiv, siyasət meydanında oyun qaydaları olmayan bir dövlətlə belə oynamaq çox təhlükəlidir. Düşünürəm ki, Rusiya Ukrayna ilə müharibəni bitirdikdən sonra Ermənistanla daha ciddi "məşğul olacaq".

ABŞ-la bağlanan strateji tərəfdaşlıq müqaviləsinə gəlincə isə bu müqavilənin Ermənistana nə verəcəyi bəlli deyil. Sorosun yetirməsi olan Paşinyana və onun hakimiyyətinə, Sorosdan zəhləsi gedən ABŞ-ın yeni prezidenti Donal Tramp hansı münasibəti bəsləyəcək? Heç şübhəsiz, Paşinyan bu münasibətin necə olacağını öncədən yaxşı bildiyindən, Tramp kürsüyə oturana qədər ABŞ-la tələm-tələsik bir tərəfdaşlıq sazişinin bağlanmasını istədi".

Bəs strateji tərəfdaşlıq sazişi imzalanan kimi ABŞ-ın gələn həftə sərhəd təhlükəsizliyini gücləndirmək məqsədilə Ermənistana xüsusi sərhəd mühafizə qrupu göndərəcəyini açıqlaması nədən xəbər verir? Xüsusi mühafizə qrupu Ermənistanın hansı ölkə ilə sərhədində yerləşdirilə bilər?

**Politoloq Elxan Şahinoğlu bildirdi ki, ABŞ-ın sərhəd təhlükəsizliyini gücləndirmək məqsədilə Ermənistana xüsusi sərhəd mühafizə qrupu yerləşdirməsinə hazırlıq çoxdan başlayıb, sadəcə, sazişin bu bəndini məxfi saxlamağa çalışıblar:** "Bundan əvvəl baş nazir Paşinyan hiyləgər addım ataraq, İranla sərhəddə Rusiya hərbçilərini erməni hərbçilərlə əvəz edib. Çünki bunu etmədən Qərbi Zəngəzurda amerikalı hərbçiləri yerləşdirmək çətin olardı. ABŞ mühafizə qrupu böyük ehtimalla Avropa İttifaqı müşahidəçi missiyasının yerləşdiyi yerə yaxın ərazidə yerləşəcək".

Paşinyan hakimiyyətinin ilk illərində Ermənistan Milli Təhlükəsizlik Xidmətinin direktoru olmuş, "Hayrenik" Partiyasının sədri Artur Vanetsyan "Ermənistan və ABŞ arasında strateji əməkdaşlıq haqqında sənəd"lə tanış olduqdan sonra narahatlıq keçirdiyini bildirib. Modern.az xəbər verir ki, Vanetsyanın sözlərinə görə, gedişata əsasən, baş nazir Nikol Paşinyan tezliklə Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından (KTMT) çıxdığını elan edəcək.

"Rusiya Federasiyası öz növbəsində mahiyyətcə bildirdi ki, Ermənistan Avropa İttifaqına üzvlük məsələsini gündəmdə saxlaya bilməz və Avrasiya İqtisadi İttifaqının üzvü olaraq qala bilməz.

Aydındır ki, Nikol Paşinyanın xarici siyasəti hələ də avantüra sferasındadır və vətənimizə növbəti fəlakət gətirmək təhlükəsi yaradır.

İstənilən hökumət qərarı vətənin mənafeyinə və bu qərarın nəticələrinin diqqətlə hesablanmasına əsaslanmalıdır. Bu arada, bu işdə başqalarının maraqlarından doğan tələskənlik göz qabağındadır. Bu o deməkdir ki, istisnasız olaraq hamımızın əziyyət çəkəcəyi ciddi nəticələr ola bilər", - Vanetsyan bildirib.

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 8 (8618) 16 yanvar 2025



## Əsgər odlu silahla özünü öldürüb

**Müdafiə Nazirliyinin N saylı hərbi hissəsinin hərbi qulluqçusu, əsgər Baxşəliyev Adil Baxşali oğlu odlu silahdan atəş açmaqla özünü öldürüb.**

Hərbi prokurorun böyük köməkçisi - Hərbi Prokurorluğun mətbuat xidmətinin rəhbəri, baş ədliyyə müşaviri Firad Əliyev APA-nın sorğusuna cavab olaraq bildirib ki, bu barədə Kəlbəcər Hərbi Prokurorluğuna məlumat daxil olub.

Daxil olmuş məlumat əsasında Kəlbəcər Hərbi Prokurorluğunun və Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Kriminalistika və İnformasiya Texnologiyaları İdarəsinin əməkdaşları tərəfindən müvafiq baxışlar aparılmış, iş üçün əhəmiyyət kəsb edən predmetlər maddi sübut kimi götürülüb, məhkəmə tibbi ekspertin iştirakı ilə meyitin xarici və daxili müayinəsi keçirilib, eləcə də digər hərəkətlər icra edilib.

Fakt üzrə Kəlbəcər Hərbi Prokurorluğunda Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılaraq şahidlər dindirilib, müxtəlif ekspertizalar təyin edilərək, icraya yönəldilib və digər istintaq hərəkətləri həyata keçirilib.

Hazırda istintaq davam etdirilir və qanunvericiliyin tələblərinə uyğun olaraq bütün tədbirlərin görülməsi, o cümlədən hər bir fakta və əmələ hüquqi qiymət verilməsi təmin olunacaq.

# Ermənistandan qaçan Qarabağ erməniləri - Qərbin əcaib iddiaları

## Çingiz Qənizadə: "Beynəlxalq hüquqa, ədalətə, mənəviyyata zidd bir mövqe sərgiləyirlər"



**Antiterror əməliyyatından sonra Qarabağı könüllü tərk edən ermənilər Ermənistanda duruş gətirə bilmirlər. Onların bir qismi artıq Ermənistanı tərk ediblər. Jurnalist Voskan Sarkisyan Tavuş rayonunda məskunlaşmış 2970 nəfər (780 ailə) ermənінin bir hissəsinin oranı tərk etdiyini bildirib. O yazıb ki, hazırda onlardan cəmi 564 ailə (1920 nəfər) Tavuşda yaşayır. Yəni bir ildə 216 ailə və ya 1050 nəfər Tavuşu tərk edib. Bu faktın özü təsdiqləyir ki, ermənilər nəinki Qarabağa qayıtmaq istəmirlər, Ermənistandan da xarici ölkələrə gedirlər. Bu da erməniləri Qarabağa qaytarmaq istəyən xarici dairələrin arzusunu ürəyində qoymaqdadır. Yanvarın 8-də Ermənistan XİN rəhbəri Ararat Mirzoyan Qarabağdan könüllü olaraq gedən ermənilərin qayıdışı haqqında danışarkən deyib ki, bu barədə yaxşı heç nə deyə bilməz: "Siz məndən ermənilərin Qarabağda yaşaması barədə soruşursunuz. Biz bu barədə ermənilər orada yaşadığı zaman danışmışıq. İndi isə qayıdış hansı şərtlərlə olacaq? Hər hansı bir muxtariyyət şərtləri iləmi? Yoxsa sadəcə Azərbaycan vətəndaşları kimi, amma məktəblərdə erməni dilini öyrənmək imkanı olan şəxslər kimi? Belə bir imkan mövcud idi.**

Dağlıq Qarabağ nümayəndələrinin Azərbaycan hakimiyyəti ilə birbaşa danışıqları məsələsi 2021-2022-ci illərdə müzakirə olunmuşdu. Amma bütün bu imkanlar konkret dairələrin səyləri ilə yoxa çıxdı. İndi baş verənlərdən sonra qayıdış haqqında danışmaq mənasızdır", - deyə Mirzoyan qeyd edib.

"Azərbaycan tərəfi Qarabağın erməni əhalisinə öz evlərinə qayıtmaq imkanı yaradıb". Bunu isə ötən ilin oktyabrında Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova erməni jurnalistin guya Azərbaycanın erməni əhalisinin öz evlərinə qayıtması üçün Xankəndidə evləri sökməsi ilə bağlı sualını cavablandırarkən bildirib. Zaxarova qeyd edib ki, söhbət Azərbaycanın ərazisindən gedir və orada bu ölkənin qanunları qüvvədədir: "Biz öz evlərini tərk etmiş əhaliyə ora qayıtmaq üçün imkanın yaradılmasına yönəldilən konstruktiv addımları dəfələrlə şərh etmişik, vurğulamışıq. Biz azərbaycanlı həmkarlarımızla ikitərəfli təmaslar zamanı bu məsələni qaldırırıq və müvafiq izahatlar və izahlar alırıq... Mən bir daha vurğulamaq istəyirəm ki, qayıtmaq imkanı yaradılıb".

Nəzərə çatdıraq ki, Qərb dairələri Qarabağdan könüllü gedən ermənilərə görə yenidən Bakıya qarşı təzyiq etməyə həvəslənib. Onlar isə geri qayıtmaq haqda düşünmürlər.

Digər tərəfdən, bu məsələ müzakirə predmeti olarsa, o zaman Ermənistandan deportasiya edilmiş azərbaycanlıların Qərbi Azərbaycana qayıdışı da paralel olaraq gündəmə gəlməlidirmi? Bundan sonra ermənilərin Qarabağa qayıdışı mümkündürmü?

Millət vəkili Elman Nəsirov mövzu ilə bağlı "Yeni Müsavat"a danışıb. O qeyd edib ki, bu gün Cənubi Qafqaz regionunda bir-birinə əks iki proses getməkdədir:

"Bunlardan biri odur ki, işğaldan azad olunmuş Qarabağa və Şərqi Zəngəzura soydaşlarımızın qayıdışı uğurla həyata keçirilməkdədir. Artıq 10 kənddə bu məskunlaşma həyata keçirilib və söhbət 10 mindən artıq keçmiş məcburi köçkünümüzün öz ata-baba yurduna qayıtmasından gedir. İlin sonuna qədər 30 kəndə belə bir köçün həyata keçirilməsi planlaşdırılır.

Digər əks proses isə Ermənistanda baş verir. Ermənistan əhalisi kütləvi şəkildə ölkəni tərk edir, xüsusilə də Qarabağdan könüllü olaraq çıxıb getmiş ermənilər Ermənistanda yaşamaq istəmirlər. Məsələn, erməni mətbuatının yazdığına görə, təkcə Tavuşda son müddətdə 1050 nəfər kəndin ərazisini qısa zaman ərzində tərk edib. Paşinyan da bunu etiraf etməyə başlayıb. O bildirib ki, xüsusilə erməni gənclər ölkəni tərk edir. Bunun səbəblərindən biri onların 3-cü Qarabağ müharibəsinin başlanmasından çəkinməsidir.

Xüsusilə də Ermənistana Fransadan hücum silahlarının, dağıdıcı ölümcül silahların gətirilməsi, Hindistandan, Yunanıstandan, Kipr Respublikasından və digər ölkələrdən bu tipli silahların alınması erməni gənclərində belə bir fikir formalaşdırıb ki, müharibə ola bilər. Belə olarsa, onlar mənasız ölümə getmək istəmirlər və çarə yolu kimi ölkəni tərk edirlər.

Yeri gəlmişkən, bu məsələlərlə bağlı təkcə Paşinyan deyil, ölkənin xarici işlər naziri də müvafiq sualı cavablandırıb və bildirib ki, ölkəni tərk edən ermənilər iki istiqamət üzrə bilet almırlar - yalnız bir istiqamət üzrə alırlar, yəni getdiyi yerdən qayıtmırlar. Bu artıq reallıqdır və Ermənistanın siyasi hakimiyyətinin nümayəndələri bunu etiraf etməyə başlayıblar.

Xüsusilə də ABŞ-ın Bayden administrasiyası Ermənistana silahlandırma xəttində dəstək verir və Ermənistanla strateji tərəfdaşlıq müqaviləsi imzalayıb. Bu müqavilə hərbi komponentləri də özündə ehtiva edir. ABŞ Ermənistanı "Ukraynalaşdırma" siyasətini həyata keçirməkdədir və bu, artıq sirr deyil. Bu reallıq ölkə əhalisinin ölkəni tərk etməsini şərtləndirən əsas amillərdən biridir.

İndi Ermənistanda ümidlər Trampa qalıb. Onlar Trampın gəlişi ilə bu təhlükələrin aradan qalxacağını arzulayırlar. Çünki fərqindədirlər ki, Azərbaycanla müharibə yolunu seçmək və Azərbaycanla silahlanma yarışına girmək Ermənistan üçün fəlakət olacaq.

Almaniya ekspertləri qeyd edirlər ki, SSRİ-nin dağılmasının əsas səbəblərindən biri ümumdaxili məhsulun 6 faizinin müdafiə xərclərinə yönəldilməsi idi. İndi Ermənistan da bu yolu seçib və bu, Ermənistan üçün fəlakətdir. Büdcəsi olduqca zəif olan dövlətin müdafiə xərclərini 2025-ci ildə 1,7 milyard dollara çatdırması iqtisadiyyat üçün ağır yükdür və bu, sosial məsələlərin kəskinləşəcəyinə işarədir. Ermənistan əhalisi bunu dərk etdikcə ölkəni tərk etməyə başlayır".

**Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri Çingiz Qənizadə isə qeyd edib:** "Öncə qeyd edim ki, hazırda Ermənistanda sosial vəziyyət o qədər acınacaqlıdır ki, hətta ölkədə daimi yaşayan insanlar belə ölkəni tərk etmək məcburiyyətində qalırlar. Nəzərə alsaq ki, onlar Qarabağda separatçı rejim dövründə Azərbaycanın işğal olunmuş torpaqlarından əvəzsiz istifadə ediblər, gen-bol əkib-biçiblər, qazanıblar və bizim yeraltı, yerüstü sərvətlərimizi talayıblar, bu qəbildən olan insanların Qarabağdan getdikdən sonra Ermənistanda duruş gətirə bilməyəcəyi aydın görünür. Çünki Ermənistanın özünün vəziyyəti olduqca acınacaqlıdır. Təkcə Qarabağdan gedən ermənilər deyil, Ermənistanın özündə yaşayan ermənilər də uzun illərdir ki, ölkəni tərk edirlər və onların bu qərarı başa düşüləndir.

Göstərilən rəqəmlərə baxdıqda, məsələn, Tavuş rayonunda məskunlaşmış 2970 nəfərdən böyük əksəriyyətinin oranı tərk etməsi, digər rayonlarda da vəziyyətin eyni dərəcədə acınacaqlı olduğunu göstərir. Hətta İrəvanın özündə də vəziyyət fərqli deyil. Onların Ermənistandan çıxıb getməsi həm də onu göstərir ki, Qarabağa qayıtmaq istəmirlər. Çünki 30 illik işğal dövründə törətdikləri cinayətlər, xalqımıza qarşı bəslədikləri kin və nifrət onların bizimlə birgə yaşamaq imkanlarını məhdudlaşdırır. Əgər bir az vicdanları varsa, etiraf etməlidirlər ki, bu millətin başına gətirdikləri bəlalardan sonra onlarla bir yerdə yaşamaq mümkün deyil.

Lakin biz bir qədər unutqan xalqıq və qapıları üzlərinə açmışıq. Kim ki, xalqımıza qarşı çirkin əməllərdə iştirak etməyib və Azərbaycan vətəndaşlığını qəbul etmək istəyir, buyursunlar gəlsinlər. Amma bir nəfərin belə geri qayıtmaması onu göstərir ki, onlar Qarabağa qayıtmaq istəmirlər. Daha yaxşı həyat arzusu ilə Avropaya, Rusiyaya və digər ölkələrə getməkdə maraqlıdırlar.

Belə olan halda sual yaranır: əgər ermənilər bunu istəmirsə, Ermənistanın siyasi hakimiyyəti bunu reallaşdıra bilmirsə, Qərbə nə düşüb? Nə üçün Qərb zorla erməniləri Qarabağa qaytarmaq və bölgəni gələcəkdə qaynar nöqtəyə çevirmək niyyəti güdür? Nə üçün Azərbaycana qarayaxma kampaniyaları aparır, qətnamələr qəbul edir və sanksiyalarla hədələyirlər? Bu, başa düşülən deyil. Cavab isə sadədir: Qərb Cənubi Qafqazda sülhün bərqərar olmasında maraqlı deyil və Qarabağdan gedən ermənilərdən təzyiq vasitəsi kimi istifadə etməyə çalışır.

Lakin unutmamalıyıq ki, bizim də Ermənistandan qovulmuş 300 minə yaxın soydaşımız var. Onların da geri qayıtmaq hüququ var. Qərbi Azərbaycan İcması bu gün məhz bu məsələnin üzərində işləyir və dünya ictimaiyyətinə çatdırmaq istəyir ki, "əgər siz 20-30 min erməni ilə bağlı Azərbaycana təzyiq göstərirsinizsə, bizim də 300 min azərbaycanlı olaraq ata-baba torpaqlarımıza qayıtmaq hüququmuz var. Gəlin, bu məsələyə də diqqət yetirin və bununla bağlı Ermənistan hökumətinə müraciət edin, bəyanat verin, hansısa addımlar atın".

Təəssüf ki, Qərb bunu etmək istəmir və görünən odur ki, onlar daha çox ermənilərin yanındadırlar. Beynəlxalq hüquqa, ədalətə, mənəviyyata zidd bir mövqe sərgiləyirlər".

❑ Xalidə GƏRAY, "Yeni Müsavat"

# “İran qoşunları Zəngəzura girməyə hazırlaşır” blefi - Bakıdan reaksiya

## Rus və erməni analitiklərə görə, Tehran Meğri bölgəsinin Azərbaycan tərəfindən tutula biləcəyindən şübhələnir; siyasi partiyalardan bu proqnozlara fərqli baxış...

**“Əhmədian İran qoşunlarının Ermənistan ərazisinə yerləşdirilməsi imkanı ilə bağlı müavilə bağlamağı təklif edib”. “Yeni Müsavat” yazır ki, bu iddia ilə rus politoloq Stanislav Tarasov “Svobodnaya pressa” qəzetindəki məqaləsində çıxış edib.**

O bildirib ki, Yaxın Şərqdəki böyük böhranın sunami dalğaları Cənubi Qafqaza da çatmağa başlayıb. Tarasov deyir ki, İran Ermənistanın Meğri bölgəsinin Azərbaycan tərəfindən tutula biləcəyindən şübhələnir. “Tehranın Bakıya çəkindirici təsir göstərmək imkanları daha böyükdür. Yalnız ona görə ki, Azərbaycan Rusiya ilə birlikdə Şimal-Cənub qlobal geoiqtisadi layihəsinin iştirakçısıdır və Qafqazda geosiyasi sabitlikdə maraqlıdır”. O vurğulayıb ki, Ermənistan başqa məsələdir. “Əhmədian İrəvana səfəri zamanı Ermənistana Avropa İttifaqının sərhəd rayonlardakı müşahidə missiyasından imtina etməyi təklif edib”. Tarasov qeyd edib ki,o, İran qoşunlarını Ermənistana gətirmək barədə təklifini fərqli əsaslandırmağa çalışıb. “Onu belə əsaslandırıblar ki, bu, xarici hərbi qüvvələrin Ermənistanda olması hesab edilməyəcək və yalnız vəziyyəti sabitləşdirəcək”.




“İranın Ali Milli Təhlükəsizlik Şurası katibi Əli Əkbər Əhmədianın Bakı və İrəvana səfəri böyük əhəmiyyət kəsb edir. Həmin səfərlər həm regional vəziyyətin qiymətləndirilməsi, həm də İranın maraqları kontekstində nəzərdən keçirilməlidir”. Bu sözləri isə erməni hərbi ekspert Vitali Manqasaryan Əhmədianın 8-9 yanvarda Bakı və İrəvana səfərinə münasibət bildirərkən deyib. “Düşünürəm ki, İran Azərbaycanın Ermənistana qarşı niyyətlərini, eləcə də hərbi imkanlarının və planlarının təfərrüatını mümkün qədər yaxşı anlamağa çalışır. İran Ermənistanın təhlükəsizlik problemləri və regional təhlükəsizlik sisteminə təsir göstərə biləcək mümkün hərbi razılaşmalarda da maraqlıdır və erməni tərəfinin işləmək üçün geniş meydanı var”, - o bildirib. Manqasaryanın fikrincə, İran Azərbaycanın təzyiqi ilə Ermənistanın Zəngəzur dəhlizi məsələsində fikrinin dəyişib-dəyişmədiyini də müəyyənləşdirməyə çalışır. Erməni türkoloq Varujan Geqamyan erməni mediasına müsahibəsində deyib ki, Azərbaycanın Zəngəzur “iştahını” cilovlamaq üçün İranla təlim keçirməliyik.

Bütün bu deyilənləri nəzərə alaraq, İran hərbi kontingenti Zəngəzura daxil ola bilərmi? Bölgədə yeni eskalasiya gözlənilirmi? “Biz istər-istəməz nə vaxtsa Rusiyanın indi danışdıqlarına gələcəyik: Cənubu Qafqaz ölkələri bütün problemlərini yaxın qonşuları ilə həll etməlidir”. Bunu Rusiya xarici işlər naziri Sergey Lavrov keçirdiyi illik mətbuat konfransında bildirib. “Bəyan edirlər ki, AB missiyası Ermənistanın Sünik (Zəngəzur) bölgəsində təhlükəsizliyi təmin edəcək, bu o qədər də anlaşılan deyil. Məhz buna görə də 3+3 Cənubi Qafqaz ölkələri və onların qonşuları mexanizminin yaradılması təşəbbüsü dəstəklənib. Düşünürəm ki, bu, daha məhsuldar formatdır", - Lavrov vurğulayıb.

Azərbaycan Zəngəzur dəhlizinin açılması üçün 100 milyonlarla vəsait qoyub. Dəhlizin açılmasına əminlik olmasaydı, o vəsaiti yatırmazdıq. Artıq dəmir yolu xətləri sərhədə çatmaq üzrədir. Avtomobil yolları tamamilə yenidən qurulur. Yeni körpülər, yeni tunellər, keçid məntəqələri Ağbəndə qədər tikilib. Nəticə etibarı ilə Ermənistanla Rusiya bu məsələdə anlaşa bilmir. Ermənistanın təklifi bütün kommunikasiya xətlərinin açılmasıdır. Bu da Azərbaycan üçün ziyanlı deyil. Biz onsuz da bunun əleyhinə olmamışıq. Problem odur ki, Zəngəzurla paralel olan kommunikasiya xətlərinin sərhədlərin delimitasiya və demarkasiya məsələləri həll olunmadan açılması mümkün deyil. Hazırda 410 km-dən çox şərti sərhəd xətti yaranıb. Ermənistan tərəfi nə qədər tez Azərbaycanın haqlı tələbləri ilə razılaşsa, bu, bir o qədər tez başa gələr, digər kommunikasiya xətləri açılar.

**“Yeni Müsavat”a danışan Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Samir Əsədli İranın Zəngəzura qoşun yeritmək niyyətini istisna etmədi. Lakin VHP sədrinin müavini hazırkı şəraitdə bunun regional müharibəyə səbəb olacağını qeyd etdi:** “Rusiya İranın bu addımına qətiyyən razı olmaz. Ermənistan bəhanə gətirə bilər ki, guya təhlükəsizlik səbəbindən İran hərbi qüvvələri bölgəyə dəvətlə yerləşib. Amma buna bir də Qərbin reaksiyasının nə olacağını düşünək. Özü də ABŞ-la yeni xartiyanın imzalandığı vaxtda Ermənistan İran qoşunlarını çağırmağa cürət etməz. Əksinə, Vaşinqtonda imzalanan son saziş Tehran-İran gərginliyinə səbəb olacaq. Çünki İrana sanksiya tətbiq edən dövlətin sərhəd mühafizəsi üzrə qrup Ermənistana yerləşəcək. Dünənə qədər Ermənistanı bağrına basıb qucaqlayan İran rejiminin indi qardaşının bu hərəkətlərinə qiymət verməsini gözləyirik”.

**S.Əsədli əlavə etdi ki, Zəngəzur dəhlizinin açılmasından ən çox təşviş keçirən İrandır:** “Qalan tərəflər isə koridorun işə düşməsində maraqlıdırlar. Sadəcə, kimin nəzarətində olacağı mübahisəsi gedir. Qərb Rusiya və İranı bu marşrutdan kənarda saxlamağa can atır. Mirzoyanın Blinkenlə imzaladığı sənəd də Zəngəzur dəhlizinin açılmasına əngəl ola bilər. Ancaq əsəb müharibəsinin sonunda İran qoşunlarının Zəngəzura daxil olacağını gözləmirəm. Ümumiyyətlə, Ermənistan ağlını başına yığmalı və bilməlidir ki, dəhliz dinc yolla açılmalıdır. Azərbaycana gəldikdə isə biz dəhlizin güc tətbiq edərək açmaq fikrində olmamışıq, bu gün də aparılan propoqanda əleyhimizə yönəlib”.

**Milli Cəbhə Partiyasının sədr müavini Ehtiram Mehdiyev İran qoşunlarının Zəngəzura girməsi haqda proqnozları blef adlandırdı. Onun fikrincə, Vaşinqtonda imzalanan strateji tərəfdaşlıq sazişindən sonra İran ordusunun bu ərazilərə yerləşməsi mümkün deyil, ABŞ Ermənistanın Tehrana bu imkanı yaratmasına icazə verməz:** “Bütövlükdə isə Paşinyan hakimiyyəti böyük oyunların içərisindədir və başının möhkəm əzilməsi gözlənilir. Onun Qərblə Rusiya arasında etdiyi avantürüst hərəkətlər, "iki stul" siyasəti bir gün bərk cəzalanması ilə nəticələnəcək. Bizi isə maraqlandıran odur ki, Naxçıvana quru yolun açılması təmin edilsin. Ermənistan da bu minvalla Azərbaycan üzərindən Rusiyaya dəmiryol xətti əldə edəcək. Bölgənin inkişafında region ölkələri ilə birgə addım atılmalıdır. ABŞ və Avropa Birliyinin müdaxiləsi isə yalnız gərginlik, eskalasiya riskləri yaradır". E.Mehdiyevin sözlərinə görə, 2025-ci il heç də asan keçməyəcək, region uğrunda gedən rəqabət sərtləşəcək: “Biz buna hazır olmalıyıq. Bölgəni qarışdırmaq istəyən qüvvələr var. Azərbaycan isə Ermənistana başa salır ki, yeni müharibə onun ordusunun növbəti dəfə darmadağın olması deməkdir. Ona görə gah amerikalıları, gah avropalıları bölgəyə dəvət etmək, gah da Rusiya və İran arasında manipulyasiya ona baha başa gələcək”.

❑ **Emil SALAMOĞLU, “Yeni Müsavat”**



## Pezeşkian: “Guya nüvə bombası hazırlayırıq”

**“İran nüvə silahı yaratmaq niyyətində deyil”. “Yeni Müsavat” xəbər verir ki, bu sözləri İran prezidenti Məsud Pezeşkian “NBC Nyus”a müsahibəsində deyib. “Biz nüvə silahı yaratmağa çalışmırıq, lakin bizi guya bomba hazırlamaqda ittiham edirlər. Bu, bəhanə uydurmaq üçün istifadə etməyə çalışdıqları sxemdir. Bu, doğru deyil”, - o bildirib.**

❑ **EMİL, “Yeni Müsavat”**



## Rəsmi Tehran: “Bu sənəd hərbi ittifaq anlamı vermir”

**"İran və Rusiya arasında hərtərəfli strateji tərəfdaşlıq haqqında müqavilə hərbi ittifaqın formalaşdırılmasını nəzərdə tutmur. Sənəd müdafiə sahəsində əməkdaşlıq daxil olmaqla, ikitərəfli münasibətlərin bütün aspektlərinin inkişafına yönəlib".**

“Yeni Müsavat” xəbər verir ki, bu barədə İranın xarici işlər naziri Abbas Arakçı bəyan edib. “Bu, kompleks və hərtərəfli bir müqavilədir. O, ikitərəfli münasibətlərin bütün aspektlərini əhatə edir, xüsusilə iqtisadiyyat və ticarətə diqqət yetirilir. Müqavilə təhlükəsizlik və müdafiə sahəsində əməkdaşlığı nəzərdə tutur, lakin hərbi ittifaq yaratmaq məqsədini güdmür”, - deyə iranlı diplomat bildirib. Onun sözlərinə görə, müqavilə üçüncü ölkələrə qarşı yönəlməyib və Rusiya ilə İranı heç bir şəkildə məhdudlaşdırmır. Xatırladaq ki, daha əvvəl Kremlin məlumatına əsasən, Rusiya prezidenti Vladimir Putin və İran prezidenti Məsud Pezeşkian 17 yanvar tarixində danışıqlardan sonra hərtərəfli strateji tərəfdaşlıq haqqında müqavilə imzalayacaqlar.

❑ **EMİL, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 8 (8618) 16 yanvar 2025



# Oğurluğun plastikası

Zamin HACI
zaminhaci@gmail.com

**Bütün dünya yenilikləri kimi, plastik cərrahiyyənin də zibilini çıxartmaq üzrəyik. Günaşırı saxta cərrahlar kimisə qətlə yetirir, şikəst qoyur. Fırıldaqçı klinikaların adları, uydurma həkim diplomları havada uçuşur. Mən plastik cərrahiyyənin əleyhinə deyiləm, yanlış anlamayın. Bəzən hansısa qəzada insanın dərisi, əzaları sıradan çıxır, bunları düzəltmək vacibdir. Ancaq insanın bioloji yaşı anlayışı var. Zamanla saç tökülməli, üz qırışmalıdır. Bunun da öz gözəlliyi var. İnsan insan kimi, insan sifətiylə qocalmağı da bacarmalıdır. Biz robot və ya saman doldurulmuş kukla deyilik.**

Misal üçün, aktyorlar Jan Pol Belmondo və Alen Delonun qocalığını xatırlayın. Hər ikisi 88 yaşında öldü. Belmondonun sifəti qırışlar içində idi, Delon isə üzündə hər nöqtəni doldurtmuşdu. Məndən soruşsanız, Belmondonun qırışıq üzü Delonun hamar üzündən (türklər demiş, "bəbək poposu") nurlu, insani, yaraşıqlı görünürdü. Rəhmətlik Alen Delonun üzünə baxmaq olmurdu, hətta. O dərəcə əcaib, saxta görkəm almışdı.

Bunları niyə yazıram, səbəbi tragikomikdir. Bizim, adını çəkməyimə ehtiyac yoxdur, bir xalq artistimiz var, hansısa dələduz plastik cərrahın qurbanı olub - alnına doldurulan maddə vurub gözündən çıxıb. Dünən mən sənətkarımızın həmin cərrahı məhkəməyə verməsi haqda xəbəri oxuyanda həm onun halına yandım, həm də, pis çıxmasın, gülməyim gəldi. Çünki artistimizin bir zamanlar oxuduğu çox populyar mahnı yadıma düşmüşdü. Həmin mahnıda sənətkar deyirdi: "Saçlarımda dən oldun, Alnımın qırışısan, Necə unudum səni?"

Lakin indi məlum olur alın qırışları aradan qaldırılmaq üzrə imiş. Saçlarda da, maşallah, bir dənə dən gözə dəymir, elə qara boyayıb, sanki kainatdakı məşhur qara maddənin yatağını əldə edibdir. Hər şey unudulmaq üzrəymiş, saxta diplom aman verməyib.

İnsan gərək sənətinə uyğun yaşasın. Saxtakarlıq cəzasız qalmır. Hərçənd burada da plastikanın əhəmiyyəti var.

Məsələn, Naxçıvanda bir qrup yoldaş dövlətin 145 milyon manatını basıb yeyiblər, məhkəmə onlara şərti cəza kəsib. Bir, beş, on milyon əkişdirənlər arasında da şərti cəza, ev dustaqlığı, hakimdən çırtma, prokurordan şapalaq, konvoydan çimdik cəzaları alaraq aradan çıxan şəxslərlə tez-tez rastlaşırıq. Bu isə istər-istəməz vətəndaşlarımız arasında mənasız suallar yaranmasına səbəb olur. Deyirlər niyə üç-beş min manat oğurlayanlara 10 il həbs cəzası verilir, 100 milyon oğurlayanlar isə azadlıqda asudə dolaşır.

Əzizlərim, bu, cavabı içində olan suallar kateqoriyasına aiddir. Niyə başa düşmürsünüz? Azadlıqda qalmaq üçün, məhz çox oğurlamaq lazımdır! Az-maz oğurlayanlara, xırda-xuruş işlərlə hüquq sistemimizin başını qatan avaralara niyə hörmət bəsləməli, niyə onlara qarşı humanist davranmalıyıq? Olmaz! İşə girişmisənsə, zəhmət çək, çoxlu çırpışdır. Dərindən götür, dövlət büdcəsinin qazmağı gəlsin.

Çox oğurlayanın tək orqanlarda deyil, el-oba, camaat arasında da hörməti daha çox olur. Çünki məbləğdən hərəyə nəsə çatır. Ucundan-qulağından. Yoxsa 3 min oğurladı, bundan bizə nə veracək?

Bunun anekdotu da var. Deyir bir yoxsul məsciddə dua edirmiş, yanında da hansısa oliqarx məmur. Məmur dua edir ki, nazir müavini işləməyim bəsdir, ya Allah, mənim nazir qoyulmağıma kömək ol. Birdən dinləyir, görür yanındakı yoxsul Allahdan çörək istəyir. Oliqarx tez cibindən 1 manat çıxarır, yoxsula verir, deyir: "A kişi, al pulu, get özünə çörək al, qurban olduğumu xırda işlərlə məşğul eləmə".




# Qərbin "Türk axını"na qarşı məkrli planı - baş tutacaqmı...

## Vüqar İsgəndərov: "ABŞ öz maraqlarının təmini üçün bütün yollara əl atır"
## Rəşad Bayramov: ""Türk axını"na qarşı baş verə biləcək istənilən hücum..."
## Niyaməddin Orduxanlı: "Lavrov haqlıdır"

**Qərbin iqtisadi, xüsusi ilə enerji daşıyıcıları ilə bağlı yalnız öz maraqlarına xidmət edən layihələri inkişaf etdirmək, digərləri isə sıradan çıxarmaq planlarının mövcudluğu sirr deyil. Bu kontekstdə Rusiyanın xarici işlər naziri Sergey Lavrov ilginc açıqlama verib. O iddia edib ki, ABŞ "Türk axını"nı sıradan çıxarmaq istəyir.**

XİN başçısı Amerikanı enerji infrastrukturuna qarşı terror hücumlarına "yaşıl işıq" yandırmaqda, Şimal Axınının ardınca "Türk axını"nı sıradan çıxarmaq cəhdində ittiham edib.

Lavrovun dediklərində həqiqət payı nə qədərdir? ABŞ "Türk axını"nı sıradan çıxara bilərmi?

**Deputat Vüqar İsgəndərov Lavrovun dediklərində dolayısı ilə həqiqət payı görür:** "Təəssüflər olsun ki, hər zaman insan haqlarından, sülhdən, inkişafdan bəhs edən Qərb reallıqda bunun əksini edir. Daha doğrusu, başda ABŞ olmaqla, bəzi Qərb ölkələri və bəlli mərkəzlər müstəqil siyasət yürüdən dövlətlərə çeşidli təzyiq siyasəti həyata keçirir, bu zaman hətta təxribatlardan və hərbi müdaxilələrdən də istifadə edirlər. Rusiyanın xarici işlər naziri Sergey Lavrovun verdiyi açıqlama da bu baxımdan düşündürücüdür.

Bu kifayət qədər ciddi bir iddiadır. Çünki yuxarıda qeyd etdiyimiz kimi, Qərb öz maraqlarının təmini üçün bütün yollara əl atır. Bu istiqamətdə təxribatlar da istisna deyil. Bu kontekstdə Rusiyanın xarici işlər nazirinin məlum iddiası düşündürücü olmaqla yanaşı, gözlənilən təxribatlara hazırlıqlı olmaq üçün bir çağırış kimi də dəyərləndirilə bilər".

**AMİP Ali Məclisinin sədri, politoloq Rəşad Bayramov burada dezinformasiya ola biləcəyini vurğuladı. Ekspert Avropa ölkələrini Ukraynaya qarşı qaldırmaq planlarını da ehtimal edir:** "Məlumdur ki, "Türk axını" dedikdə Rusiyadan başlayıb Qaradəniz üzərindən Türkiyəyə qədər uzanan qaz kəməri nəzərdə tutulur. Bu kəmər təkcə Rusiya üçün deyil, həm də Türkiyənin mühüm qaz mərkəzinə çevrilməsi baxımından olduqca əhəmiyyətli layihədir. Belə ki, bu boru xəttinin ümumi tutumu ildə 31.5 milyard kub metr qaz ötürməyə imkan verir. Rusiyanın xarici işlər nazirinin bir müddət əvvəl ABŞ-ın "Türk axını"nı məhv etmək planlarının olmasını deməsi təbii ki, narahatlıq doğurur. Bu iddianın nə qədər gerçək olduğunu demək çətin olsa da, belə bir ehtimal hər zaman var. Ucuz rus qazına Avropada olan tələbat əvvəlki qədər olmasa da, hələ də öz aktuallığını saxlayır. Ukrayna ərazisindən keçən boru xətti ilə bağlı Ukrayna tərəfindən müqavilənin uzadılmasından imtina edilməsi onsuz da bir sıra Avropa İttifaqı ölkələrini çətin duruma salıb. İndi "Türk axını"na qarşı baş verə biləcək istənilən hücum daha ağır enerji çatışmazlığına səbəb ola bilər.

Qazanan isə təbii olaraq ABŞ olacaq. Təkcə ona görə yox ki, bu Rusiya qazının bazara çıxarılmasının qarşısını almaqla Rusiyanı maliyyə problemləri ilə üzləşdirəcək, həm də ona görə ki, ABŞ Rusiya qazı əvəzinə öz qazını baha qiymətə ehtiyacı olanlara satmaq imkanı əldə edəcək.

Əgər Ukrayna tərəfindən "Türk axını"nı hədəf alan əməliyyatlar olacaqsa, bu, Avropaya qaz tranziti üçün təhlükəli vəziyyəti meydana gətirməklə yanaşı, Türkiyənin maraqlarına da zərbə vurmuş olacaq.

Nə olacağını qarşıda aydın görəcəyik. Bu məlumat Rusiya tərəfindən dezinformasiya məqsədilə ötürülmüş və Avropanın ayrı-ayrı ölkələrini Ukraynaya qarşı qaldırmağa hesablanmış məlumat da ola bilər. Və ya belə bir ehtimalın dəqiq olduğunu bildiyi üçün Rusiya həm Türkiyəyə, həm də rus qazına ehtiyacı olan Avropa ölkələrinə Ukraynaya təzyiq göstərməsi və boru kəmərinə hücumu həyata keçirməməsi üçün təzyiq göstərməyə çağırış kimi də qəbul oluna bilər".

**Ədalət, Hüquq və Demokratiya Partiyası sədrinin müavini, politoloq Niyaməddin Orduxanlı isə Rusiyanın XİN başçısını haqlı sayır:** "Uzun müddətdir ki, həm Qərb, həm də Amerika Türk dövlətlərinə və türk millətinə qarşı bütün gücü ilə fəaliyyət göstərir. Qardaş Türkiyə dövlətinin qüdrətli, inkişaf etmiş və regionda böyük nüfuza malik olmasını nə arzulayırlar, nə də görmək istəyirlər. Amerika Türkiyənin rəhbərliyində hörmətli Ərdoğan kimi xarizmatik bir lideri qəbul etmək istəmir. Amerikaya sözə qulaq asan, Qərbin və ABŞ-ın bütün göstəriş və tapşırıqlarını həyata keçirən Süleyman Dəmirəl kimi Türkiyəyə rəhbərlik edən şəxs lazımdır. Bu gün ABŞ Türkiyəyə həm də ona görə acıqlıdır ki, Rusiya ilə Türkiyənin çox yaxın münasibətləri qurulub, formalaşıb. Amerikanın və Avropanın sanksiyalarına, o cümlədən ən ağır iqtisadi blokadaya aldığı Rusiya ilə Türkiyənin hərtərəfli əlaqələri qurulub. Türkiyə və Azərbaycan Rusiya üçün olduqca əhəmiyyətli dövlətlərdir. Qərb hər zaman öz enerji daşıyıcılarını yalnız öz maraqlarından çıxış edərək həyata keçirib. Türkiyənin enerji daşıyıcıları ilə bağlı fəaliyyətini hər imkanla çalışır ki, sıradan çıxartsın. Bu baxımdan Rusiyanın xarici işlər naziri Lavrov haqlıdır. ABŞ "Türk axını" layihəsi ilə bağlı istənilən addımı atar ki, Türkiyəyə böyük ziyan vurmuş olsun. Bunun üçün istənilən terror aktı törədilə bilər. PKK və digər terror təşkilatlarını Türkiyəyə qarşı hansı güclər yaradıb? Kim bu təşkilatlara silah verir?! Təbii ki, Amerika! Səbəb hər kəsə bəllidir: daim Türkiyəni təzyiq altında saxlamaq. Ancaq Türkiyənin və türk xalqının əzmkarlığı nəticəsində Amerika istəklərinə nail ola bilmir. Əksinə, son illərdə regionda, Suriyada, Liviyada və digər ərazilərdə qardaş Türkiyənin nə qədər söz sahibi olduğunu bütün dünya görmüş oldu".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 8 (8618) 16 yanvar 2025

# Ermənistan konstitusiyasını dəyişməyə qərar verib - formal, yoxsa...

## Rəsmi İrəvan bəhanələrlə vaxt qazanmağa çalışır; Ermənistanda revanşistlərin daha bir şousu gözlənilir

**Sülh müqaviləsinin imzalanmasına başlıca amil Ermənistan Konstitusiyasında Azərbaycana və Türkiyəyə qarşı torpaq iddialarının olmasıdır. Azərbaycan rəsmi olaraq bəyan edib ki, bu işğalçılıq siyasətini ehtiva edən bəndlər konstitusiyadan çıxarılmayanadək sülh müqaviləsinin imzalanması real deyil.**

Azərbaycan Prezidenti sülh sənədinin imzalanması üçün əsas şərtlərdən birincisi olaraq Ermənistan Konstitusiyasının dəyişdirilməsi tələbini irəli sürüb. Prinsipial mövqe ondan ibarətdir ki, Ermənistan Konstitusiyasından ölkəmizə qarşı ərazi iddiaları çıxarılmayınca, sülh sazişinin imzalanması mümkün deyil. Əslində bu, tamamilə məntiqə və beynəlxalq hüquqa əsaslanan mövqedir. Bir ölkənin əsas qanununda digər ölkəyə və yaxud ölkələrə qarşı ərazi iddiası əksini tapdığı halda, necə normal münasibətlər qurula bilər? İndiki halda Ermənistan həm sülh imzalamaq istədiyi Azərbaycana, həm də sərhəd qapılarını açmaq üçün cəhd göstərdiyi Türkiyəyə qarşı ərazi iddiaları irəli sürür. Belə olduqda normal əməkdaşlıqdan söhbət gedə bilməz. Ermənistan rəsmilərinin vaxtaşırı konstitusiya mövzusunda ziddiyyətli açıqlamalar verməsi, yaxud Konstitusiya Məhkəməsinin qərarını önə çəkməyə çalışması sülhdən boyun qaçırmaq və vaxt uzatmaq cəhdidir. Düzdür, Ermənistanda ab-hava normal qərar vermək üçün ideal sayıla bilməz, bir sıra hallarda Nikol Paşinyanın ehtiyatlı davranması anlaşılan sayıla bilər. Amma əgər rəsmi İrəvan doğrudan da sülh tərəfdarıdırsa, o halda qarşısındakı bütün maneələri adlayıb, Azərbaycana və Türkiyəyə əl uzatmalıdır.



Ermənistan cəmiyyətində də sözügedən məsələ xeyli vaxtdır müzakirə olunur, amma onların indiyədək bu yöndə işləri yalnız manevrlər etməkdən ibarətdir. Növbəti dəfə bu məsələyə dair Ermənistanın ədliyyə naziri Srbuhi Qalyan açıqlama verib. O, ölkə konstitusiyasının dəyişdiriləcəyini istisna etməyib. Nazir deyib ki, "bizim vəzifəmiz seçkilərə qədər yeni konstitusiyanın mətninə sahib olmaqdır, bizim işimiz bu istiqamətə yönəldilməlidir".

Xatırladaq ki, Nikol Paşinyan hələ 2024-cü ildə yeni konstitusiya layihəsi hazırlamaq üçün komissiya yaratmaq barədə sərəncam imzalamışdı. Bu yöndə hansısa addımlar atılması isə bəlli deyil. Amma erməni nazirin açıqlamasının ikinci hissəsində Azərbaycanın Qərbi Azərbaycanla bağlı mövqeyi də xatırladılır və bununla da Bakının şərtinin icrasının mümkünsüz olmasına işarə edilir. Kəsəsi, Ermənistan hakimiyyəti qərbi azərbaycanlıların təhlükəsiz qayıdışı mövzusu ilə konstitusiya düzəlişlərini qarşı-qarşıya qoymağa cəhd edir. Hər halda, suallar yaranır: Ermənistan ağıllanır, sülhə əngəl olan məsələləri gerçəkdən aradan qaldırmağa hazırlaşır, yoxsa bu, vaxt udmaq üçün növbəti manevrdir? Müsbət nəticə gözləməyə dəyərmi? Onlar konstitusiyanı formal dəyişəcək, yoxsa işğalçılığı ehtivar edən bəndlər tamam yığışdırılacaq? Ermənistanın davranışları və yürütdüyü siyasət hələ də müsbət qənaətə gəlməyə imkan vermir. Yeri gəlmişkən, Ermənistanda revanşistlərin daha bir şousu gözlənilir. Bugünlərdə keşiş Baqrat Qalstanyan növbəti dəfə meydan mübarizəsinin anonsunu verib. Bir sıra hallarda konstitusiyanı dəyişdirməkdən boyun qaçıran Paşinyan hakimiyyəti də keşiş hərəkatının fəaliyyətindən bəhrələnir. Paşinyan prosesləri 2027-ci ilədək məhz bu şərtlər altında aparıb çıxartmağa çalışdığı üçün meydan şoularına da şərait yaradır.

Bu arada, Rusiyadan sülh razılaşması ilə bağlı növbəti açıqlama gəlib. "Biz istər-istəməz nə vaxtsa Rusiyanın indi danışdıqlarına gələcəyik: Cənubi Qafqaz ölkələri bütün problemlərini yaxın qonşuları ilə həll etməlidir". Bunu Sergey Lavrov deyib. Sitat: "Bəyan edirlər ki, Aİ missiyası Ermənistanın Zəngəzur (Sünik) bölgəsində təhlükəsizliyi təmin edəcək, bu o qədər də anlaşılan deyil. Məhz buna görə də 3+3 Cənubi Qafqaz ölkələri və onların qonşuları mexanizminin yaradılması təşəbbüsü dəstəklənib. Düşünürəm ki, bu, daha məhsuldar formatdır".

**Lavrov Azərbaycanla Ermənistan arasında sülh sazişindən danışarkən bildirib**: "İndi belə görünür ki, Ermənistan və Azərbaycan praktiki olaraq sülh müqaviləsi ilə bağlı razılığa gəliblər və aydındır ki, qalan iki məsələnin üstündən keçmək çətindir. Həll etmək lazımdır: ya hə, ya da yox". Rusiya yenidən bu prosesdə təşəbbüsü ələ almaq istəyir? Qərbin ruporuna çevrilən Ermənistanın reaksiyası necə olacaq?

**Deputat Sahib Alıyev "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Ermənistanın ədliyyə nazirinin konstitusiyanın dəyişməsi haqda açıqlaması, baş nazirin sözçüsünün bu yaxınlarda Minsk Qrupunun buraxılması məsələsini nəzərdən keçirdikləri haqda dediklərinin başqa bir şəkildə təkrarıdır**: "Maraqlıdır deyilmi, nədən konkretlikdən uzaq bu açıqlamaları diqqət mərkəzində olmaq üçün dərindən-qabıqdan çıxan Paşinyan deyil, onun komandasındakılar səsləndirirlər? Mənim fikrimcə, onlar bununla hər hansı addım atmağa yox, vaxt udmağa çalışırlar. Gözləyirlər ki, ABŞ-ın yeni seçilmiş prezidentinin bizi bölgəyə yanaşmada necə bir siyasət yeridəcəyi tam bəlli olsun. Əgər Trampın komandası da Baydeninki sayaq davransa, onda bu "nəzərdən keçirmə"ni də, konstitusiyalarına dəyişikliyi də revanşizm üçün fürsət ümidi ilə uzatdıqca uzatmağa çalışacaqlar. Əslində Paşinyan "Qarabağ Azərbaycandır" deyəndən çox, az sonra Azərbaycanın haqqında danışdığımız hər iki tələbi yerinə yetirilməli idi. Göründüyü kimi, yerinə yetirilmədi. Bunun da iki səbəbi var, birincisi Qərbdəki havadarları buna izn verməditər, ikincisi, Paşinyan özü də sözdə "Qarabağ Azərbaycandır" desə də, niyyəti başqadır".

**Lavrovun 3+3 formatı haqda dediklərinə gəldikdə, S.Alıyev xatırlatdı ki, cənab Prezident yanvarın 8-də İranın Milli Təhlükəsizlik üzrə Ali Şurasının katibi Əli Əkbər Əhmədianı qəbul edərkən də bildirdiyi kimi, bunun təşəbbüskarı məhz Azərbaycandır**: "Sözdə buna qarşı çıxmasa da, əməldə regiondakı problemlərin bu format çərçivəsində həllini istəməyən elə həmin İranla Rusiyanın indiyədək hər cür dəstək verdikləri Ermənistandır. Rusiya ilə İran 3+3 formatını təkcə Qərbin regionda möhkəmlənməsinin qarşısını almaq məqsədilə dəstəkləməyib, həm də Azərbaycanla Ermənistan arasında həqiqətən sülhdə maraqlı olsaydılar, onda rəsmi İrəvanın bu formata üstünlük verməkdən başqa yolu qalmayacaqdı. Çünki Ermənistanın dünyada ən çox asılı olduğu iki ölkə varsa, hələ də onun biri Rusiya, digəri İrandır".

**Sosial Tədqiqatlar Mərkəzinin baş mütəxəssisi, politoloq Tural İsmayılov qeyd etdi ki, Ermənistan, ümumiyyətlə, sülh danışıqları davam edən zaman Azərbaycanın əleyhinə müxtəlif təxribatlar törədib**: "Bundan öncə Brüssel və Vaşinqton görüşlərində də Ermənistan çoxsaylı təxribatlara əl atdı. Yenə görürük ki, Ermənistan tərəfindən ölkəmizə qarşı çirkin hücumlar həyata keçirilir. Bu gün özəlliklə ABŞ və Fransanın patronajlığı altında Qərbin neoimperialist şəbəkələri Azərbaycan və Ermənistan arasında formalaşa biləcək sülh mühitindən ciddi şəkildə narahatdır. Cənubi Qafqaz regionunda sabitlik və sülhün əldə edilməsi prosesini blok etmək üçün əllərindən gələni edirlər. Əvvəla, hamıya bəllidir ki, bu gün Ermənistan ərazilərində hansısa Avropa İttifaqının mülki missiyasından söhbət getmir. Bu qurumun missiyasının adındakı mülkilik məsələsi regionu qarışdırmaq istəyən qüvvələrin çirkin siyasi niyyətlərini pərdələmək üçün istifadə edilir". **T.İsmayılov bildirdi ki, eyni zamanda Rusiya rəsmilərinin də açıqladığı kimi, bu gün Ermənistan ərazilərində Avropa İttifaqının mülki missiya adı altında Azərbaycan, Türkiyə, Rusiya və İran əleyhinə pozucu kəşfiyyat fəaliyyəti həyata keçirilir**: "Əslində Ermənistan uzun müddətdir ki, Avropa İttifaqının missiyası ilə manipulyasiya edir. Lakin faktiki olaraq Ermənistan parlamentinin Avropa İttifaqının bu ölkədəki uzunmüddətli missiyasını indi ratifikasiya etməsi mənfur qonşumuzun çirkin niyyətlərini ortaya qoymuş olur. Eyni zamanda Avropa İttifaqı və ABŞ-ın Ermənistanla hansısa üçtərəfli görüşlər keçirməsi bu ölkəyə dəstək verməklə bağlı müəyyən sazişlərin imzalanması faktoru Cənubi Qafqazı təhdid edir. Rusiya da Ermənistana lazım olan təsirləri edə bilmir ya da 10 noyabr bəyanatını praktiki işlək etmək və Zəngəzur dəhlizi əleyhinə Ermənistandakı güruhu dayandırmağı bacarmır. Bunlar isə ciddi suallar da doğurur".

❑ **E.PAŞASOY, "Yeni Müsavat"**



### "Paşinyan KTMT-dən çıxdığını elan edəcək"

**Ermənistanın baş naziri Nikol Paşinyan yaxın vaxtlarda KTMT-dən çıxdığını elan edəcək. Musavat.com xəbər verir ki, bunu Ermənistan Milli Təhlükəsizlik Xidmətinin (MTX) keçmiş rəhbəri Artur Vanetsyan deyib.**

"Qaydalara uyğun olaraq, Nikol Paşinyan yaxın zamanda Ermənistanın KTMT-dən çıxdığını elan edəcək. Öz növbəsində Rusiya bildirib ki, Ermənistan Avropa İttifaqına üzvlük məsələsini gündəmə gətirə bilməz və eyni zamanda Avrasiya İqtisadi İttifaqının üzvü olaraq qala bilməz. Aydındır ki, Nikol Paşinyanın xarici siyasəti macəralarla dolu olaraq qalır və ölkəmizə yeni fəlakət gətirmək təhlükəsi yaradır.

İstənilən dövlət qərarının əsasında Vətənin mənafeyi və həmin qərarın nəticələrinin və mümkün təsirlərinin diqqətlə hesablanması dayanmalıdır. Halbuki bu halda başqa qüvvələrin maraqlarından doğan tələskənlik aydın görünür. Bu isə o deməkdir ki, ciddi nəticələr yarana bilər və bu nəticələrdən istisnasız olaraq hamımız zərər çəkə bilərik", - deyə o, Facebook səhifəsində yazıb.

❑ **Musavat.com**

YENİ MÜSAVAT
N 8 (8618) 16 yanvar 2025

# BP-də nə baş verir - qlobal proseslərin təsiri, yoxsa...

## İlham Şaban: "Şirkətin bu vəziyyətə düşməsi indiki deyil, bundan əvvəlki rəhbərliyin fəaliyyətinin nəticəsidir"

**Britaniyanın enerji nəhəngi bp ötən ilin dördüncü rübünün yekununda neft və qaz sektorunda hasilatın üçüncü rübdən aşağı düşəcəyini gözləyir. Şirkətin hesabatında qeyd edilib ki, mənfi dinamikanın davamlı olacağı gözlənilir.**

BP-nin ilkin hesablamalarına görə, oktyabr-dekabr aylarında avtomobil yanacaqlarının satış həcmi və bu biznesin gəlirliliyi üç ay əvvəlkindən aşağı olacaq ki, bu da mövsümi dalğalanmalarla izah olunur. Şirkət həmçinin "neft ticarəti biznesində zəif performans", eyni zamanda əvvəlki dövrlə müqayisədə xalis borc göstəricisində azalma qeydə alacağını gözləyir. Nağdsız hesablaşmaların həcminin 1-2 milyard dollar olacağı gözlənilir.



Son 12 ayda bp-nin bazar kapitallaşması 7 faiz azalaraq 68,2 milyard funt-sterlinqə (83,38 milyard dollar) düşüb.

Qeyd edək ki, ötən ilin üçüncü rübündə bp-nin xalis mənfəəti təxminən 24 dəfə, mənfəəti isə 31 faiz azalıb. İyul-sentyabr aylarında xalis mənfəət bir əvvəlki ilin eyni dövründəki 4,86 milyard dollarla müqayisədə 206 milyon dollar təşkil edib. Sentyabrın sonunda şirkətin xalis borcu 24,26 milyard dollar olub, bir il əvvəl isə 22,32 milyard dollar idi.

BP şirkətinin perspektivlərinə dair bədbin proqnozlar ötən ildən dünya mətbuatında yer almaqdadır. Bu məlumatlar şirkət 112 il fəaliyyət göstərdiyi Türkiyədə işini dayandırdından sonra yayılmağa başlayıb. Türkiyədəki biznesinin satışını bp 2024-cü ilin noyabrında yekunlaşdırıb. Ötən il həmçinin bp Azərbaycan qazını Avropaya çatdıran Cənub Qaz Dəhlizinin son seqmenti olan TransAdriatik Qaz Boru Kəmərindəki payının bir qismini satıb. Şirkətin mətbuat xidmətindən verilən məlumata görə, bp Trans-Adriatik Qaz Boru Kəmərindəki (TAP) payından Amerikanın özəl investisiya fondu "Apollo Global Management"ə satmağa razılaşıb. Alqı-satqının məbləği 1 milyard dollardır. Türkiyədən qazı İtaliyaya çatdıran TAP kəmərinin səhmdarları bp - 20 faiz; CQD - 20 faiz; Snam - 20 faiz; Fluxys - 20 faiz; Enagas - 20 faiz, - idi.

BP həmçinin ötən il ABŞ-dakı külək enerjisi biznesini də satışa çıxarıb. Məlumatı "BP Wind Energy" özü yayıb. Bu şirkət ABŞ-ın yeddi ştatında on külək stansiyasında da iştirak payına malikdir. Onların hamısı şəbəkəyə qoşulub, onların ümumi gücü 1,3 GVt təşkil edir. "RBC Capital Markets" analitikləri bu biznesin dəyərini təxminən 2 milyard dollar qiymətləndirirlər.

"Bloomberg" agentliyinin analitikləri hesab edirlər ki, bp şirkəti ciddi maliyyə problemləri yaşayır. Analitiklərin hazırladığı materialda qeyd olunur ki, bp bundan əvvəl 1998-ci ildə - neft qiymətləri 10 dollara qədər ucuzlaşanda da belə ağır vəziyyətə düşmüşdü. O zaman şirkət vəziyyətdən ABŞ-ın "Amoco" şirkəti ilə birləşməklə çıxdı: "BP bu gün də oxşar mövqedədir. Onun gələcəyi qaranlıqdır. İnvestorlar onun strategiyasına, idarəçiliyinə və idarə heyətinə inamını itiriblər".

**"Bloomberg" analitiklərinə görə, indi bp vəziyyətdən hansısa şirkətə birləşməklə çıxa bilər:** "Tarix təkrarlanmır, ancaq qafiyələnir. BP-nin rəhbəri Helqa Lund telefonu götürməli və sövdələşməni müzakirə etməlidir - bu, şirkəti effektiv şəkildə satışa çıxarmalıdır. Əgər o, yaxşı oynasa, neft nəhəngi əldə olunan sövdələşməni "bərabərlərin birləşməsi" adlandıra bilər. Bəs o kimə zəng edə bilər? Əlbəttə ki, "Shell Plc". Üstəlik, Böyük Britaniya hökuməti "Shell-BP"ni Britaniya və hələ də London Fond Birjasında siyahıda saxlamaq üçün belə bir sövdələşməni təşviq etməlidir".

**Müəlliflərə görə, bp-nin 2020-ci ildən alternativ enerjiyə investisiyaları artırması yanlış addım olub. Buna görə də hazırda investorlar yenidən diqqətin qalıq yanacaq olan neft-qaza yönəldilməsini tələb edirlər. Bildirilir ki, son illərdə bp çox böyük zərərlə üzləşib:** "BP-nin təxminən 75 milyard dollarlıq bazar dəyəri onun əvvəlki gücünün kölgəsidir. 2006-cı ildə şirkətin sərvəti 250 milyard dollar idi; hətta 1998-ci ildə, "Amoco" ilə birləşmədən əvvəl, 80 milyard dollar dəyərində idi. Birjada onun performansı dəhşətli idi. Uzaqlara baxsaq, vəziyyət heç də yaxşı görünmür - onun səhmləri son beş ildə 20 faiz ucuzlaşıb. Əlbəttə ki, şirkət ümidsiz deyil. Onun Meksika körfəzindəki biznesi misilsizdir və ticarət imkanları əfsanəvidir. Lakin qiymətləndirmək mümkün olmayan bir çox zəif fəaliyyət göstərən bölmələri də var".

Müəlliflərin yazdığına görə, bp-nin "Shell"ə birləşməsi böyük qazanc əldə etməyə imkan verər: "Barclays Plc" analitiklərinin hesablamalarına əsasən bp-"Shell" birləşməsi illik əməliyyat xərclərində 7,5 milyard dollar, kapital məsrəflərində 5 milyard dollar qənaətə imkan verər ki, bu da sövdələşmənin bir neçə il ərzində özünü doğrultması demək olar: "Üstəlik, bp-nin alınması "Shell"in əsas problemlərini həll edəcək: 2030-cu ildən sonra artımı necə saxlamaq və onun ABŞ-dakı mövcudluğunu necə genişləndirmək. "Shell" rəhbərləri son illərdə çox yaxşı qərarlar qəbul ediblər. "Shell" hazırda 2026-cı ilin ortalarına qədər tamamlanmayacaq bir iş dönüşü üzərində cəmləşib, ona görə də bp ilə müqavilə indi şirkətin istədiyindən daha tez olacaq".

**"Bloomberg" ekspertləri bildirirlər ki, başqa variantlar da var:** "BP "TotalEnergies"i bərabərhüquqluların birləşməsinə inandırmağa çalışa bilər. Lakin Böyük Britaniya hökuməti şirkətin xarici ələ keçməsinə o qədər də həvəsli olmaya bilər. Avropa razılaşması olmadığı təqdirdə, bp ABŞ-ın çətin vəziyyətə düşən neft nəhəngi "ConocoPhillips" üçün cəlbedici ola bilər. "Conoco"nun bazar dəyəri 135 milyard dollardır və bu, onu bp-dən təxminən iki dəfə böyük edir. Nəhayət, bp Yaxın Şərqin strateji investoruna müraciət edə bilər - yada Əbu-Dabi və Küveytin dövlət neft şirkətləri gəlir. Küveytlilər 1980-ci illərin sonunda bp-nin beşdə birindən çoxunu aldılar, baxmayaraq ki, London sonradan müdaxilə edərək Yaxın Şərq ölkəsini bir hissəsini satmağa məcbur etdi. Belə bir tarixlə sövdələşmə mürəkkəb ola bilər - lakin dövlət tərəfindən idarə olunan firmalar ticarət və LNG sahəsini genişləndirmək istəyirlər. Üstəlik, yeni səhmdarlar strateji istiqamətdə dəyişikliyə məcbur etsələr, bp-nin səhmlərində hər hansı sonrakı artımdan faydalanacaqlar.

BP-nin son illərdəki fəlakətli fəaliyyətini nəzərə alaraq, Səhmdarlar Şurası bütün variantları nəzərdən keçirməlidir".

**Enerji məsələləri üzrə ekspert İlham Şabanın sözlərinə görə, bp-nin maliyyə vəziyyəti həqiqətən də çox ağırdır:** "Dünya enerji nəhənglərinə baxsaq, bp ən geridə qalanlardan biridir. Şirkətin bu vəziyyətə düşməsi indiki deyil, bundan əvvəlki rəhbərliyin fəaliyyətinin nəticəsidir. O rəhbərlik dünya reallıqlarını nəzərə almadan şirkəti bərpa olunan enerji sektorunda əsas oyunçulardan birinə çevirməyə çalışdı. Halbuki əvvəla, bu sahə çox böyük investisiyalar tələb edən sahədir. Meksika körfəzində 10 milyardlarla dollar ziyan vuran qəzadan sonra isə bp-nin bu investisiyaları yatırmaq imkanları xeyli məhdudlaşmışdı. Üstəlik, yaşıl enerji uzunmüddətli fəaliyyətlər hesabına başa gələn enerjidir, bu sahədə qısa müddətdə böyük nəticələr əldə etmək mümkün deyildi. BP-nin əvvəlki rəhbərliyi bu amilləri nəzərə almadı, ənənəvi enerji layihələrinə yatırımları azaltdı. Bu şəraitdə şirkətin son 15 ildə ayaq üstə qalmasının özü maraqlıdır".

**Ekspert bildirir ki, hələlik neft-qaz qiymətləri yüksəkdir deyə bp ayaqda qala bilir:** "Proqnozlara görə, 2026-cı ildən etibarən hər iki məhsulun qiymətində ciddi azalmalar başlayacaq. Bundan sonra bp-nin vəziyyətinin daha da ağırlaşacağı gözlənilir. Buna görə də ola bilsin ki, şirkətin daha stabil vəziyyətdə olan başqa bir şirkətlə birləşməli olacaq. Ola bilsin ki, hansısa dövrdə paralel fəaliyyət göstərsin - 1998-ci il böhranından sonra bp-"Amoco" birgə fəaliyyəti kimi. Onda bp "Amoco"nu almışdı, indi isə onun özünün başqa bir şirkət tərəfindən alınması ehtimalı çox yüksəkdir. Bu baxımdan ən uğurlu variant kimi "Shell" şirkətinin adını çəkirlər. BP Böyük Britaniyanın milli şirkəti hesab olunurdu - onun səhmlərinin yarıdan çoxu Britaniya pensiya fondlarındadır. "Shell" əvvəl Niderland-Britaniya şirkəti idi, ötən il yüz faiz Britaniya şirkətinə çevrildi. Şirkət qaz sahəsində dünyanın ən nəhəng şirkətlərindən biridir. BP-nin məhz "Shell" tərəfindən alınması bütün bunlara görə daha realdır".

Onu da qeyd edək ki, bp Azərbaycanda Əsrin müqaviləsinin - "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun işlənməsi üzrə 1994-cü ilin 20 sentyabrında Azərbaycan hökuməti ilə xarici şirkətlər arasında neft-qaz sahəsində ilk hasilatın pay bölgüsü sazişinin əsas iştirakçılarından biri və operatorudur. Şirkətin layihədə 30,34 faiz payı var.

BP operatoru olduğu "Şahdəniz" yatağının işlənməsi layihəsində 29,99 faiz, Cənub Qafqaz Boru Kəməri (CQBK) və Cənub Qafqaz Boru Kəmərinin Genişləndirilməsi (CQBKG) layihələrində eyni səviyyədə, Türkiyəyə qaz çatdıran Trans-Anadolu Boru Kəmərində (TANAP) 12 faiz paya sahibdir. Bundan əlavə, bp-nin operatorluğu ilə AÇG yatağının dərin qatlarından qaz hasilatına başlanması üzrə layihənin icrasına da başlanıb. Şirkətin başqa şirkətlə birləşməsi bu layihələrə necə təsir edə bilər?

**İ.Şabanın fikrincə, bp "Shell"ə birləşərsə, bu, Azərbaycandakı layihələrdə uğurlu fəaliyyətin davam etməsinə gətirib çıxarar:** ""Shell"in bp-ni alması Azərbaycandakı qaz layihələrinin icrasında uğurlu işlərin davam etməsinə, daha yaxşı nəticələrin əldə olunmasına səbəb ola bilər. Çünki bizdəki aktivlər kifayət qədər gəlirli aktivlərdir, "Shell"in onları başqa şirkətlərə verməsi inandırıcı görünmür".

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

## OPEC gələn il üçün qlobal neft tələbatı üzrə proqnozunu açıqlayıb




**Neft İxrac Edən Ölkələr Təşkilatı (OPEC) 2025-ci il üçün ortalama gündəlik qlobal neft tələbatı üzrə proqnozunu azaldıb.**

Bu barədə "APA-Economics" OPEC-in aylıq hesabatına istinadən xəbər verir.

Proqnoza əsasən, gələn il qeyd olunan göstəricinin 105,2 mln. barel olacağı proqnozaşdırılır (öncəki proqnoz - 105,27 mln. barel), bu da 2024-cü ilin proqnoz göstəricisi ilə müqayisədə 1,45 mln. barel çoxdur.

Bununla yanaşı, OPEC gələn il üçün gündəlik qlobal neft tələbatı üzrə proqnozunu açıqlayıb. Belə ki, təşkilat qeyd olunan göstəricinin 106,63 mln. barel səviyyəsində olacağını ehtimal edir, bu da 2025-ci ilin proqnoz göstəricisi ilə müqayisədə 1,43 mln. barel çoxdur.

Hesabata görə, ötən il gündəlik qlobal neft tələbatı 103,75 mln. barel (öncəki proqnoz - 103,82 mln. barel) səviyyəsində olub, bu da 2023-cü ilin göstəricisi ilə müqayisədə 1,54 mln. barel artım deməkdir.

Xatırladaq ki, 2023-cü ildə qlobal gündəlik neft tələbatı 102,21 mln. barel səviyyəsində olub, bu da illik müqayisədə 2,55 mln. barel çoxdur.

# Ərəb nazirin Ankaraya gəlişinin gizlinləri - Ərdoğanın Dəməşq səfərinə hazırlıq

## Suriyanın yeni xarici işlər nazirini ordu və kəşfiyyat rəhbərləri də müşayiət ediblər; Türkiyə lideri Trampa qədər bu məsələləri həll etməyi hədəfləyib

**Suriyanın yeni xarici işlər naziri Əsəd Həsən Şibaninin Ankara səfərində YPG/SDQ terror təşkilatı ilə bağlı məsələ gündəmdə olacaq. "Yeni Müsavat" xəbər verir ki, bu barədə "Al Arabiya" məlumatlı mənbələrə istinadla bildirib.**



Nəşr yazır ki, tərəflər Suriyada təhlükəsizliklə bağlı inkişafları, xüsusən də Ankara ilə "Suriya Demokratik Qüvvələri" (SDQ) arasında davam edən silahlı qarşıdurmaları müzakirə edəcəklər. Ərəb nazir Şibani və türkiyəli həmkarı Hakan Fidan enerji və təhlükəsizlik sahələrində əməkdaşlıq və Dəməşqə tətbiq edilən beynəlxalq sanksiyaları da müzakirə edəcəklər. Qeyd olunur ki, Türkiyə Suriyanın yeni administrasiyasına təlimlərdə kömək etmək istəyini də bəyan edib. Mənbə Ankara-Dəməşq əməkdaşlığı çərçivəsində yeni hökumətin Suriyadakı silahlı qruplaşmaların ölkənin rəsmi ordusuna inteqrasiyası və ya ləğvinə də diqqət çəkib.

Türkiyə mənbələrinə görə, Şibaninin Ankaraya səfəri Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın Dəməşqə səfərinə zəmin yaradacaq. Bu, Suriyanın yeni rəhbəri Əhməd əl-Şəra (Qolani - E.S.) Ankaraya səfər etməzdən əvvəl baş tutacaq. Ərdoğanın Suriya paytaxtına səfəri ABŞ-ın yeni seçilmiş prezidenti Donald Trampın Ağ Evə gəlişindən sonra, onun bölgə və Suriyanın yeni administrasiyası ilə bağlı baxışı aydınlaşana qədər baş tuta bilər. Şibaninin Türkiyə ilə bu ölkədəki sayı 3 milyona yaxın olan suriyalı qaçqınların qayıdışını da müzakirə edəcəyi gözlənilir. Suriyanın baş diplomatı Türkiyəyə yanvarın 15-də gedib. Onu müdafiə naziri general-mayor Murhəf əbu Kəsra və kəşfiyyat xidmətinin rəhbəri Enes Xəttab müşayiət edəcək.

Şibani X sosial media hesabında türk dilində paylaşım edib. O, paylaşımında Türkiyənin ölkəsinə dəstəyinə də diqqət çəkib. "Yeni Suriyanı təmsil etmək üçün 14 ildir Suriya xalqının yanında olan Türkiyə Cümhuriyyətinə ilk rəsmi səfərimizi edəcəyik", - Şibani bildirib. Onu da deyək ki, Suriyada hökumətə tabe olmayan silahlı qruplaşmaların ləğvi prosesi çərçivəsində yeni gəlişmələr var. Bu çərçivədə Suriya Milli Ordusu (SNO) ilə aparılan danışıqlar nəticəsində "Heyət Təhrir əş-Şam" (HTŞ) və SMO da daxil olmaqla, ölkənin şimalındakı silahlı qrupların nizami orduda iştirakı ilə bağlı razılıq əldə edilib. Türkiyə mətbuatı yazır ki, Suriya Müdafiə Nazirliyi hər hansı silahlı qruplaşmaya məzhəb, dini və ya regional imtiyaz verəcək bütün təklifləri rədd edib. Ölkənin yeni lideri Əhməd Şəra silahlı qruplara dövlət idarəçiliyində yer olmayacağını və bütün silahlı birləşmələrin nizami orduya qoşulmasının lazım olduğunu bildirib. Prosesin Türkiyənin ləğvini tələb etdiyi PKK/SDQ/YPG terror təşkilatını da əhatə edəcəyi deyilir.

Yeri gəlmişkən, Suriyada Bəşər Əsəd rejiminin süqutundan sonra yeni hakimiyyət ölkəyə xarici məhsulların idxalına qoyulan məhdudiyyətləri aradan qaldırıb. Bu barədə "Financial Times" nəşri yazıb. Bildirilir ki, Suriya mağazalarının piştaxtalarına xaricdən gətirilən "Pepsi" içkisi, "Pringles" çipsləri, "Twix" və "Snickers" şokoladları, "Heinz" ketçupu, Livanda yetişdirilən banan və s. görmək mümkündür. Bəşər Əsədin hakimiyyəti dövründə Suriyaya qarşı tətbiq edilən beynəlxalq sanksiyalar səbəbindən xarici malların idxalı çətin idi, hətta hakimiyyət bu məhsulların gətirilməsini qadağan etmişdi. Suriyada qonşu Livan şirkətləri ilə və ya başqa adlar altında müştərək müəssisələr vasitəsilə çoxlu xarici məhsullar istehsal olunurdu. Bundan başqa, Bəşər Əsədin dövründə büdcə gəlirlərini artırmaq üçün bəzi idxal mallarına rüsumlar artırılıb. Məsələn, keçən il "iPhone"lar üçün rüsum 900 dollara qədər idi.

**Siyasi ekspert Ramiyə Məmmədova** Suriyadakı keçid hökumətinin Türkiyəyə ilk rəsmi səfərinin reallaşmasını ölkənin problemlərinin həllini sürətləndirəcəyini hesab edir. Onun sözlərinə görə, Türkiyənin çətiri altında Suriyadakı yeni hökumət illərlə yığılan məsələləri sahmana salmağa çalışır: "Bu, elə də asan deyil. Prioritet məsələ silahlı birləşmələri ləğv edərək Müdafiə Nazirliyinə tabe etdirməkdir. PKK və YPG probleminə qarşı Türkiyə ordusu ilə birgə mübarizə aparılacaq. YPG məsələsində ABŞ və Türkiyənin mövqeləri haçalansa da, Suriyadakı böhranın həllində tərəflərin fikirləri üst-üstə düşür. Dövlət Departamentinin nümayəndələrinin Dəməşqə gələrək keçid hökuməti ilə görüşməsi göstərir ki, ABŞ Türkiyənin Suriyadakı siyasətini qəbul edir". **Şibaninin gəlişinə münasibət bildirən təhlilçiyə görə, bunun ardınca hazırkı lider Qolani Ankaraya səfər edə bilər:** "Bundan sonra cənab Ərdoğanın Dəməşqə gedəcəyini gözləyirəm. Belə tezliklə Türkiyə prezidenti Suriyaya səfər etməyəcək. Əsas budur ki, hazırda proseslər nəzarət altındadır. İlk növbədə silahlı qruplar demontaj edilməlidir. Bu təhdid aradan qalxmalıdır ki, suriyalı qaçqınların qayıdışı sürətlənsin".

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**



## Əsədin maşın kolleksiyası açıqlandı

**Suriyanın devrilmiş lideri Bəşər Əsədin Dəməşqdəki Prezident Sarayının qarajında çoxlu sayda klassik və elektrikli avtomobillər, eləcə də nadir tapılan nəqliyyat vasitələrindən ibarət qalereya aşkarlanıb.**

"Anadolu Agentliyi"nin müxbirləri məlumat veriblər. Məlumata görə, qarajda çoxlu sayda "Ferrari F50", "Lamborghini Murcielago", "Aston Martin", "Bentley" və "Cadillac" kimi bahalı avtomobil markalarına rast gəlinib. Qeyd olunur ki, "Ferrari" brendinin ən bahalı modellərindən biri kimi tanınan "F50"nin bazar dəyəri təxminən 3 milyon dollardır. Sarayın lüks avtomobilləri arasında yer alan "Ferrari F12 Berlinetta" isə təxminən 2 milyon dollar dəyərində qiymətləndirilir.

❑ **EMİL,**
**"Yeni Müsavat"**



## Öcalan ev dustaqlığına buraxılır?

**Dekabrın 28-də DEM Partiyasının deputatlarının İmralıya səfəri ilə başlayan proses PKK lideri Abdullah Öcalanın ev dustaqlığına çıxarılacağına dair iddiaları gündəmə gətirmişdi. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan bu iddialara cavab verib. Bu barədə "Hürriyyət" qəzetinin köşə yazarı Abdulqadir Səlvi məlumat yayıb.**

"Ötən gün bir qrup AKP millət vəkili ilə səhər yeməyində görüşən Prezident Ərdoğan "Öcalan ev dustaqlığına buraxılacaqmı" sualına bu cür cavab verib: "Ev dustaqlığından söhbət gedə bilməz. Öcalan özü də çıxmaq istəmir. Bu sözlər haradan çıxır? Uşaq qatili əfv edilə bilməz", - A.Səlvi qeyd edib. "Ərdoğan eyni zamanda ədliyyə naziri Yılmaz Tunca üzünü çevirərək "bunları xalqa anladın" göstərişini də verib", - Səlvi əlavə edib.

❑ **EMİL**
**"Yeni Müsavat"**



## PKK-nın İrandakı lideri məhv edildi

**Türkiyə Milli Kəşfiyyat Təşkilatı (MİT) terror qruplaşması PKK-ya qarşı sərhədyanı əməliyyatlarını davam etdirir. "Yeni Müsavat" xəbər verir ki, sonuncu əməliyyat İraqın Süleymaniyyə şəhərində keçirilib.**

Bildirilir ki, keçirilən əməliyyatda terror təşkilatının İrandakı strukturu YRK-nın qurucularından olan "Amed Serhed" kod adlı İslam Dotkanlou və onun mühafizəçisi "Şivan Çiya" kod adlı Akam Şahe zərərsizləşdirilib. İranda anadan olan İslam Dotkanlou 2002-ci ildə terror təşkilatı PKK/KCK-nın kənd kadrlarına qoşulub. Daha sonra Türkiyəyə gedərək Diyarbəkir və Bitlis kəndlərində bir çox terror aktlarında iştirak edib.

❑ **EMİL**
**"Yeni Müsavat"**

# Məleykə Abbaszadə: "Yaxın gələcəkdə imtahanlar rəqəmsal formada keçiriləcək"




"Yaxın gələcəkdə imtahanlar rəqəmsal formada keçiriləcək".

APA xəbər verir ki, bunu Dövlət İmtahan Mərkəzinin İdarə Heyətinin sədri Məleykə Abbaszadə DİM-in Niderlandın İmtahan və Sertifikatlaşdırma üzrə Tədqiqat Mərkəzinin (RCEC) sertifikatı ilə təltifedilmə mərasimində çıxışı zamanı qeyd edib.

M.Abbaszadə bildirib ki, DİM yerli ekspertlərlə də əməkdaşlıq etməyə hazırlaşır: "Eyni zamanda yerli ekspertlərlə sosial sorğu keçirib müzakirələr aparmaqla imtahanlar, qiymətləndirmə haqqında onların da fikirlərini nəzərə alacağıq. Biz yeni qiymətləndirmə sisteminə keçməliyik".

# Qazaxıstandan unikal örnək - korrupsionerlərin reyestri yaradılır



Qazaxıstanda ağır və xüsusilə ağır cinayətlər törətmiş şəxslərin daxil olacağı korrupsioner məmurların ictimai reyestri yaradılacaq.

Musavat.com yerli mediaya istinadla xəbər verir ki, Qazaxıstanda Korrupsiyaya Qarşı Mübarizə Agentliyinin saytında yerləşdirilən korrupsiyaya uğramış məmurların ictimai reyestrinin tətbiqinə başlanılacaq.

Qazaxıstan Respublikası Baş Prokurorluğunun qanun yaradıcılığının əlaqələndirilməsi şöbəsinin müdiri Albina Mautova bildirib ki, reyestrə ağır və xüsusilə ağır korrupsiya cinayətlərinə görə məhkum olunmuş şəxslər daxil ediləcək. Giriş üçün əsas qanuni qüvvəyə minmiş məhkumluq hökmü olacaq. Siyahıdan çıxarılması yalnız bəraət hökmü çıxarıldıqdan və ya cinayət qeydinin tam silinməsindən sonra mümkündür.

Bundan əlavə, Korrupsiyaya Qarşı Mübarizə üzrə milli hesabat, kənar risk təhlilləri və antikorrupsiya tədbirlərini tənzimləyən hüquqi aktlar xüsusi internet saytında yerləşdiriləcək. Təşəbbüs şəffaflığın artırılması və korrupsiya hüquqpozmalarının qarşısının alınmasının gücləndirilməsi məqsədini daşıyır.

❑ Musavat.com

**Bələdiyyələrin birləşməsi ilə bağlı mülkiyyət, maliyyə və digər məsələlərin həlli məqsədilə komissiyalar yaradılacaq. Bununla bağlı baş nazir Əli Əsədov qərar imzalayıb. Qərarla bələdiyyələrin birləşməsi ilə bağlı mülkiyyət, maliyyə və digər məsələlərin həlli üçün Ədliyyə Nazirliyinin (komissiyanın sədri), Maliyyə Nazirliyinin, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin nümayəndələri, müvafiq yerli icra hakimiyyəti orqanının və birləşən bələdiyyələrin hər birindən bir nümayəndə daxil edilməklə, "Azərbaycan Respublikasında bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələrin yaradılması haqqında" Azərbaycan Respublikasının 2024-cü il 18 oktyabr tarixli 50-VIIQ nömrəli Qanununa əsasən müvafiq komissiyalar yaradılacaq.**

# Seçki ayında bələdiyyələr birləşir - nələr dəyişəcək?

## Kiçik bələdiyyələrin böyük planlar qurmaq imkanları məhduddur; böyük bələdiyyələrin yaradılması yolu ilə onların maliyyə dayanıqlığını artırmağa çalışırlar



Komissiyaların üzvlərini təsdiq etmək üçün Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və yerli icra hakimiyyəti orqanı, habelə birləşən bələdiyyələr öz nümayəndələri barədə təkliflərini 5 gün müddətində Ədliyyə Nazirliyinə təqdim etməlidir. Qeyd edək ki, bu ayın 29-da bələdiyyə seçkiləri keçiriləcək.

Mərkəzi Seçki Komissiyasının məlumatına əsasən, Azərbaycanda yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində ölkə üzrə 5846 seçki məntəqəsi fəaliyyət göstərəcək. O da bildirilib ki, Azərbaycanda bələdiyyə seçkilərində səsvermə hüququ olan seçicilərin sayı təxminən 5 milyon 960 min nəfərdir.

Xatırladaq ki, yanvarın 29-da Azərbaycanda mövcud olan 685 bələdiyyəyə 8071 bələdiyyə üzvü seçiləcək. MSK sədri Məzahir Pənahov jurnalistlərə açıqlamasında bildirib ki, bələdiyyələr 118 seçki dairəsinin ərazisinə düşür.

"Bunlardan 7 dairə tam olaraq məcburi köçkünlərdən ibarətdir. Onlar da daimi yaşayış məntəqələrinə qayıtmadıqları üçün orada bələdiyyə seçkiləri keçirilmir. Seçicilər səsvermə günü geniş seçim imkanına malik olacaqlar", - deyə MSK sədri əlavə edib.

**Milli Məclisin deputatı Aydın Mirzəzadə** "Yeni Müsavat"a şərhində bildirdi ki, bələdiyyələr onların resurslarının bir yerə toplanması məqsədilə birləşdirilir. Millət vəkili vurğuladı ki, kiçik bələdiyyələr uzaq perspektivə planlar qura bilmirlər: "Kiçik bələdiyyələrin böyük planlar qurmaq imkanları məhduddur. Böyük qrantlar, eyni zamanda bank kreditləri əldə etməyə çıxışları olmur. Hər hansı bölgənin çox sayda kiçik bələdiyyələrinin olması həmin bölgənin imkanlarına görə birgə hərəkət fəaliyyətini də məhdudlaşdırır. Buna görə də bələdiyyələrin birləşdirilməsi, əhali sayının daha çox olduğu birləşmiş bələdiyyələrin yaradılması barədə qərar qəbul edildi. Bu qərar bələdiyyələrin imkanlarını bir yerə toplamağa imkan verəcək. "Bələdiyyələr haqqında" Qanuna görə, bələdiyyələr orta məktəblər, uşaq bağçaları yarada bilərlər, istehsal müəssisələri təsis etmək və onları idarə etmək hüququna malikdirlər. Eyni zamanda qanunun icazə verdiyi biznes fəaliyyəti ilə də məşğul olmaq imkanları var. Bələdiyyələr həmçinin parklar, uşaq əyləncə mərkəzləri qura, böyük qrantlar və bank kreditləri əldə edərək perspektivli işlər görə bilərlər. Kiçik bələdiyyələrin birləşdirilməsi həmin bələdiyyələrin əhatə etdiyi ərazidə yaşayan əhalinin də maraqlarındadır. Görünən odur ki, bələdiyyələrin birləşdirilməsi ilə bağlı müzakirələrdə narazılıq yoxdur. Cəmiyyət resursların bir yerə toplanması ilə daha böyük işlərin görülə biləcəyinin fərqindədir. Builki bələdiyyə seçkiləri daha iri bələdiyyələrin formalaşmasına səbəb olur. Hesab edirəm ki, yeni bələdiyyələr artıq birləşmiş halda aid olduqları region üçün daha səmərəli və faydalı işlər görə biləcəklər".

**Respublikaçı Alternativ Partiyasının (ReAL) sədri, iqtisadçı Natiq Cəfərli** xatırlatdı ki, Azərbaycanda bələdiyyələrin birləşdirilməsi artıq 3-cü dəfədir həyata keçirilir. "Yeni Müsavat"a açıqlamasında N.Cəfərli qeyd etdi ki, bu istiqaməti doğru hesab edir: "Bələdiyyələrin birləşdirilməsi ilə böyük bələdiyyələrin kifayət qədər ciddi imkanları və fürsətləri yaranır. Bələdiyyələrin ən böyük problemi səlahiyyətlərinin və məsuliyyətlərinin az olması ilə yanaşı, maliyyə mənbələrinin olmamasıdır. Son gedişat ondan xəbər verir ki, böyük bələdiyyələrin yaradılması yolu ilə bələdiyyələrin maliyyə dayanıqlığını artırmağa çalışırlar. Digər istiqamət isə bələdiyyələrə mütləq əlavə səlahiyyətlərin verilməsi olmalıdır. Qanunvericilikdə boşluqlar olsa da, əlavə səlahiyyətlərlə bələdiyyələr yerli özünüidarəetmə institutlarına çevrilməlidirlər. Bələdiyyələrin kommunal xidmətlər də daxil olmaqla, abadlıq-quruculuq işlərinə qədər səlahiyyətləri olmalıdır. Əlavə olaraq, maliyyə mənbələri də yaranacaqsa, bu daha effektiv fəaliyyət göstərməyə imkan yaradacaq. Hazırda bələdiyyələrin icra hakimiyyətlərinin qurumu kimi fəaliyyət göstərir ki, bu da doğru deyil".

❑ Nigar HƏSƏNLİ, "Yeni Müsavat"

YENİ MÜSAVAT
N 8 (8618) 16 yanvar 2025

# GMO məhsulları yeyək, yeməyək - fərqlənmə tələbi

## Qida mütəxəssisindən xəbərdarlıq: "Məhsulun tərkibində soya, soya lesitini və ya soyaya aid inqrediyent varsa..."

**Günümüzün mübahisəli məsələlərindən biri də GMO (genetik modifikasiya olunmuş orqanizmlər) ərzaqlarla bağlıdır. Dünyada bununla bağlı birmənalı fikir yoxdur. Amma fakt ondan ibarətdir ki, GMO qidalar insan sağlamlığı üçün arzuolunan deyil. Bu baxımdan məsələyə əksər ölkələr isti yanaşmır.**

Qeyd edək ki, İrandan Azərbaycana idxal edilən bir sıra məhsulların tərkibində genetik modifikasiya olunmuş orqanizmlər (GMO) aşkarlanıb.

Bu barədə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) məlumat yayıb.

Qeyd olunub ki, Azərbaycan qanunvericiliyinə əsasən, genetik modifikasiya olunmuş bitkilər, həmçinin müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materialları, elmi tədqiqat, sınaq və sərgilərdə nümayiş məqsədləri üçün nəzərdə tutulmayan, genetik modifikasiya olunmuş bitkilərin genetik materiallarından istifadə edilərək istehsal olunan qida məhsullarının ölkəyə gətirilməsi, istehsalı, dövriyyəsi qanunla qadağandır.

Aparılan son nəzarət tədbirləri çərçivəsində İrandan idxal edilən bir sıra məhsul partiyalarından nümunə götürülərək Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun müvafiq laboratoriyasında sınaqlara cəlb edilib, sınaq nəticəsində əsasən məhsulların tərkibində GMO aşkarlanıb. Aşkarlanan bütün faktlarla bağlı qanunvericiliyə uyğun olaraq zəruri tədbirlər görülüb.

AQTA bu sahədə fəaliyyət göstərən sahibkarlara xəbərdarlıq edərək bir daha diqqətə çatdırır ki, Azərbaycana GMO qida məhsulları idxal edilməsi yolverilməzdir. Belə məhsulların qanunsuz olaraq ölkəyə idxal edilməsi cəhdlərinin qarşısı isə qətiyyətlə alınacaq və qanunvericiliyin tələblərinə uyğun olaraq, sərt tədbirlər görüləcək.

İddialar var ki, nəzarət mexanizmlərinə və qadağalara baxmayaraq, Azərbaycan bazarlarında kifayət qədər GMO məhsullar var. Onları necə ayırd etmək olar?

Məlumat üçün bildirək ki, GMO - xüsusi laboratoriyalarda virus, bakteriya, heyvan və bitkilərin DNT-sindən istifadə edilərək yaradılan yeni bitki növlərinə verilən addır. Məsələn, kartofun soyuğa və xəstəliklərə davamlı olması üçün ona əqrəb geni, pomidor və çiyələyin şaxtaya dözümlü olması üçün isə ona balıq geni vurulur. Bu yolla canlının genetikasında dəyişiklik edilərək, məhsuldarlıq artırılır və nəticədə şirkətlər daha böyük maddi qazanc əldə edirlər.

**Qida mütəxəssisi Yusif Həkim mövzu ilə bağlı "Yeni Müsavat"a fikirlərini bildirib**: "GMO məhsulların dövriyyəsi qanunla qadağandır. Cinayət Məcəlləsinin 200.2-ci maddəsi genetik olaraq dəyişdirilmiş məhsulları əhatə edir. GMO tərkibli məhsulların birbaşa istehlakı üçün istehsalı və satışı qadağandır.




Yalnız "Qida Təhlükəsizliyi haqqında" Qanun GMO məhsulların yem kimi istifadəsinə icazə verir. Çünki elmi araşdırmalar nəticəsində bəlli olub ki, GMO məhsulları ilə qidalanan heyvanların ətində, südündə və yumurtasında heç bir GMO qalığına rast gəlinməyib. EFSA-nın bu barədə 2007-ci ildə yayımladığı araşdırma mövcuddur. İstehlakçılar məhsulun tərkibinə baxmaqla həmin məhsulun GMO olub-olmadığını təxmin edə bilər. Məsələn, məhsulun tərkibində soya, soya lesitini və ya soyaya aid inqrediyent varsa, böyük ehtimal həmin məhsul GMO-dur. Çünki dünyada istehsal olunan soyanın 95%-dən çoxu GMO-dur".

Qeyd edək ki, GMO ilə bağlı narazılıqlar olsa da, hazırkı elmi tədqiqatlar GMO qidaların sağlamlığa birbaşa olaraq ciddi zərər verdiyini və ya müəyyən xəstəliklər yaratdığını göstərməyib. Ancaq bəzi hipotetik risklər və müzakirələr mövcuddur. Qeyd edilir ki, GMO bitkiləri bəzən allergen xüsusiyyətli genləri daşıya bilər, bu isə bəzi insanlarda allergik reaksiyalara səbəb ola bilər. Bəzi tədqiqatlar GMO qidaları ilə xərçəng arasında əlaqə olduğunu iddia etsə də, bu sahədə konkret elmi sübutlar yoxdur. Əksər ekspertlər bu cür məlumatları kifayət qədər əsaslı hesab etmir. Eləcə də bəzi GMO bitkiləri genetik dəyişiklik nəticəsində antibiotik müqavimət genləri daşıya bilər. Bu, nəzəri olaraq mikrobların antibiotiklərə qarşı daha davamlı olmasına şərait yarada bilər. GMO qidaların bağırsaq mikrobiomuna təsiri barədə müzakirələr də mövcuddur. Amma bu sahədə ciddi təsdiqlənmiş dəlillər hələ ki yoxdur. Bəzi fərziyyələr GMO məhsulların hormonal tarazlığa təsir edə biləcəyini də irəli sürür. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST), Qida və Kənd Təsərrüfatı Təşkilatı (FAO) və digər nüfuzlu təşkilatlar GMO qidaların təhlükəsizliyini dəstəkləyir. Ekspertlər isə qeyd edir ki, risklərdən narahat olanların GMO sertifikatlı olmayan orqanik məhsulları seçməsi məsləhətdir.

Qeyd edək ki, "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, yem üçün istifadəsi nəzərdə tutulan genetik modifikasiya olunmuş orqanizmlərin, habelə yalnız genetik modifikasiya edilmiş orqanizmlərdən ibarət olan və ya tərkibində genetik modifikasiya edilmiş orqanizmlər olan və ya tərkibində genetik modifikasiya edilmiş orqanizmlərdən əldə edilmiş məhsul olan yem məhsullarının istehsalına, emalına və dövriyyəsinə həmin məhsullar müvafiq qaydada qeydiyyata alındıqdan sonra icazə verilir. Qeydiyyata alınmamış məhsulların istehsalı, emalı və dövriyyəsi isə qadağandır. Belə ki, sözügedən qanuna uyğun olaraq, qeydiyyatdan keçirilməyən məhsulların ölkəmizə idxalına, həmçinin respublikamızda istehsalına, emalına və dövriyyəsinə məhdudiyyətlər tətbiq ediləcək. Qanunda həmçinin qeyd olunur ki, Azərbaycan Respublikasına idxal edilən, eləcə də ölkəmizdə istehsal və emal olunan yem məhsullarının tərkibində genetik modifikasiya edilmiş orqanizmlər mövcud olduğu hallarda həmin malların etiketlərində genetik modifikasiya olunmuş orqanizmlər haqqında məlumat əks etdirilməlidir.

❑ **Afaq MİRAYİQ, "Yeni Müsavat"**



## Metapnevmavirusla bağlı risk qrupunda olanlar açıqlanıb

**İnsan metapnevmavirusu (hMPV) əsasən öskürmə və ya asqırma zamanı hava damcıları vasitəsilə, yoluxmuş şəxslə birbaşa təmas yolu ilə və ya çirklənmiş səthlərə toxunmaqla yayılır.**

Bu barədə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycandakı Ofisindən APA-nın sorğusuna cavab olaraq bildirilib.

"Əksər hallarda simptomlar yüngül olur və adi soyuqdəyməyə bənzər şəkildə müşahidə edilir. Bununla yanaşı, gənc uşaqlar, immun sistemi zəif şəxslər və yaşlı insanlar üçün xüsusilə astma, ağciyərlərin xroniki obstruktiv xəstəliyi (XOAX) və ya emfizema kimi mövcud ağciyər xəstəlikləri olan şəxslər daha ağır nəticələr riski ilə üzləşə bilər", - məlumatda deyilir.



## Bakıda yağış, rayonlarda isə qar yağacaq

**Yanvarın 16-na gözlənilən hava şəraiti açıqlanıb. Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, gün ərzində bəzi yerlərdə fasilələrlə yağış yağacağı gözlənilir. Axşama doğru yağış tədricən kəsiləcək. Cənub-şərq küləyi gündüz şimal-qərb küləyi ilə əvəz olunacaq.**

Havanın temperaturu gecə 3-6° isti, gündüz 6-9° isti olacaq.

Atmosfer təzyiqi 768 mm civə sütunu təşkil edəcək.

Nisbi rütubət 70-80 % olacaq.

Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi şərq rayonlarında, gündüzdən isə əksər yerlərdə arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi gündüz bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 1-6° isti, gündüz 6-11° isti, dağlarda gecə 3-8° şaxta, gündüz 0-5° isti olacaq.

YENİ MÜSAVAT
N 8 (8618) 16 yanvar 2025

# Özəl və gizli reabilitasiya mərkəzləri - qanun nə deyir...

## Ekspert hesab edir ki, sosial şəbəkələrdə bu cür çağırış edənlər dərhal nəzarətə götürülməlidir

**Sosial şəbəkələrdə, xüsusilə TikTokda müxtəlif adlarla reabilitasiya mərkəzlərinin reklamları həyata keçirilir. "Qurtuluş", "Dönüş" və sair adlar altında reklamlarda qeyd edilir ki, narkomaniyadan, alkoqolizmdən, depressiyadan əziyyət çəkənlər xüsusi və məxfi mərkəzlərdə müalicə və reabilitasiya olunur. Bu prosesdə qeyri-ənənəvi metodların tətbiq edildiyi də vurğulanır.**

Araşdırılanda aydın olur ki, belə mərkəzlərin bir çoxu radikal dini təmayüllü şəxslər tərəfindən idarə olunur. Onların necə, harada fəaliyyət göstərdiyi isə gizli saxlanılır.

Qeyd edək ki, ötənlərdə bu tip mərkəzlərdə insanlara işgəncələr verilməsi də ifşa olunub və həbslər həyata keçirilib. Misal üçün, 2022-ci ildə Bakının Nizami rayonunda yerləşən "Mehnur" loqopedik və psixoloji reabilitasiya mərkəzində uşaqlara işgəncə verilməsi faktı aşkar edilib. Bu hadisə ilə əlaqədar mərkəzin psixoloqu və direktor köməkçisi saxlanılmış və onlara qarşı Cinayət Məcəlləsinin 133-cü maddəsi (əzab vermə) üzrə cinayət işi açılıb.

Bundan əlavə, 2022-ci ildə Novxanıdakı "New Life" reabilitasiya mərkəzində pasiyentlərə işgəncə verilməsi ilə bağlı mərkəzin 5 əməkdaşı prokurorluq orqanları tərəfindən həbs olunub.

Cinayət işinin materiallarında göstərilib ki, "New Life" Reabilitasiya Mərkəzində müalicə kursu keçən pasiyentlərin hər birindən 1500 manatdan 6600 manata qədər ödəniş alınıb. Reabilitasiya zamanı isə dünyada narkotik, alkoqol asılılığının müalicəsində tətbiq olunan "12 addım" proqramından istifadə olunub. Lakin sözügedən mərkəzdə qaydalara, əmrlərə tabe olmayan şəxslərə qarşı zorakılıq edilib. Belə ki, Hüseyn Məmmədov mərkəzdən qaçmaq istəyəndə oranın əməkdaşları onu tutub döyüblər. Qaçmaması üçün əl-qolunu bağlayıb, bu vəziyyətdə saxlayıblar. Bir gün sonra onun vəziyyəti pisləşib. Xəstəxanaya çatdırılsa da, həyatını xilas etmək mümkün olmayıb.

Zərərçəkmiş qismində tanınmış Hüseyn Məmmədov müalicə gedişində vəfat edib. Digər pasiyentlər Fuad Həsənov, Kamran Əliyev və Cahangir Əliyev isə işgəncələr nəticəsində müxtəlif bədən xəsarətləri alıblar. Onların barmaqlarının sındırıldığı və digər işgəncələrə məruz qaldığı bildirilib.

İlkin olaraq Hüseyn Məmmədovun əzab verilməsi nəticəsində öldüyü güman edilsə də, ekspertiza rəyindən sonra onun yüksək dozada narkotik qəbulundan vəfat etdiyi məlum olub. Qeyd edək ki, "New Life" Reabilitasiya Mərkəzinin bir müddət əvvələ kimi yüksək tələblərə cavab verən mərkəz olması ilə bağlı telekanallarda reklamlar verilib.

Ancaq belə mərkəzlər artmaqda davam edir. Bəs buna qanun nə deyir?

Qeyd edək ki, Azərbaycan qanunvericiliyinə əsasən, reabilitasiya mərkəzi müvafiq lisenziya almalı və qanuni fəaliyyət göstərməlidir. Qeyri-qanuni fəaliyyət göstərən və ya pasiyentlərə qarşı zorakılıq tətbiq edən mərkəzlərin əməkdaşları Cinayət Məcəlləsinin müxtəlif maddələri, məsələn, 133-cü maddə (əzab vermə) və 145-ci maddə (qanunsuz azadlıqdan məhrumetmə) üzrə məsuliyyətə cəlb edilə bilərlər. Bu maddələr üzrə cəzalar iki ildən beş ilədək azadlıqdan məhrumetməni nəzərdə tutur.

Belə halların qarşısını almaq üçün vətəndaşlar reabilitasiya mərkəzlərinin qanuni fəaliyyət göstərdiyinə, lisenziyalarının mövcud olduğuna və peşəkar kadrlarla təmin edildiyinə əmin olmalıdırlar.



Məlumat üçün bildirək ki, əslində reabilitasiya mərkəzi müxtəlif fiziki, əqli və ya emosional problemlərini həll etmək istəyən şəxslər üçün tibb müəssisəsi sayılır. Bu mərkəzlər reabilitasiya proseslərini idarə etmək və dəstəkləmək üçün ekspert personal tərəfindən idarə olunmalıdır. Reabilitasiya mərkəzləri müxtəlif ehtiyaclara cavab verməlidir. Fiziki reabilitasiya mərkəzləri xəsarətlərdən sonra hərəkətliliyini bərpa etməyə çalışan şəxslərə kömək edir, narkomaniya ilə bağlı reabilitasiya mərkəzləri isə maddə asılılığı ilə mübarizə aparanlara dəstək verir. Bundan əlavə, psixi sağlamlıq reabilitasiya mərkəzləri psixoloji problemləri olan insanlara müalicə və məsləhət xidmətləri göstərir. Reabilitasiya mərkəzlərinin əsas məqsədi fərdlərin həyatlarını daha sağlam və müstəqil şəkildə yaşamasına kömək etməkdir. Bu mərkəzlər öz mütəxəssis heyəti ilə fərdlərin ehtiyaclarına uyğun müalicə planları hazırlayır və həyata keçirir. Müalicə fiziki müalicədən tutmuş psixoterapiyaya qədər dəyişə bilir.

**Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri, hüquq üzrə fəlsəfə doktoru Çingiz Qənizadə mövzu ilə bağlı "Yeni Müsavat"a fikirlərini bildirib:** "Bu cür fəaliyyətlər lisenziya almadan göstərilirsə, tamamilə qanunsuz fəaliyyətlərdir. Həmin fəaliyyət növü ilə məşğul olanlar özlərini xeyirxah qrup kimi təqdim etməklə guya insanları müalicə edirlər. Əslində bunun arxasında maddi və digər maraqlar durur və qeyri-professional şəxslər tərəfindən qəbul olunmayan metodlarla insanları bu bəladan qurtarmağa guya kömək edirlər. Əslində bu, biznesin bir qanunsuz formasıdır. Hesab edirəm ki, bu cür çağırışlar edən TikTok sahibləri aşkar olunduqda dərhal həmin yerlərə baxış keçirilməlidir. Ümumiyyətlə, dövlət nəzarəti olmalıdır. Hesab edirəm ki, tibb sahəsində dövlət nəzarəti müəyyən qədər insanlarda narazılıq yaradır. Bu yaxınlarda saysız-hesabsız həkimin sertifikasiyadan keçmədən və ixtisası uyğun olmayaraq qanunsuz cərrahiyyə əməliyyatları ilə məşğul olması ilə bağlı faktlar ortaya çıxdı. Ölən insanların ailələri danışdı, şikəst olan insanlar danışdı. Bundan sonra aidiyyəti qurum hərəkətə keçdi. Əslində onlara qanunsuz sertifikasiya verən qrup çoxdan aşkar olunmalıydı. Təəssüf ki, qanunsuz fəaliyyət göstərən reabilitasiya mərkəzlərində çalışanlar tamamilə həkimlikdən uzaq olan insanlardır. Biznesin bu yolunu seçiblər. Ona görə də burada təkcə Səhiyyə Nazirliyi deyil, həm də hüquq-mühafizə orqanları dərhal bu cür elanlar olduqda fəaliyyətə keçməlidir. Düzdür, bizim hüquq-mühafizə orqanlarımız tiktokerlər, əxlaqsızlığı yayanlarla bağlı çox ciddi əməliyyatlar keçirdilər. Polisin də bu addımlarını dəstəkləyirik. Çünki milli-mənəvi, əxlaqi dəyərlərimizin əleyhinə çıxaraq əxlaqsızlığı təbliğ edən bu şəxslər təbii ki, cəmiyyətdən təcrid olunmalı idi. İndi də TikTok-da başqa fəaliyyət növünün reklamı gedir. Bunun da qarşısı alınmalıdır. Ümid edirəm ki, hüquq-mühafizə orqanları buna dərhal cavab verəcəklər".

❑ **Afaq MİRAYİQ, "Yeni Müsavat"**

# Azərbaycanda metapnevmavirusa yoluxma halları qeydə alınmayıb



**Səhiyyə Nazirliyi Respublika Gigiyena və Epidemiologiya Mərkəzindən verilən məlumata görə, ölkədə qrip və digər respirator xəstəliklər üzrə epidemioloji vəziyyət diqqət mərkəzindədir.**

Səhiyyə Nazirliyindən APA-nın sorğusuna cavab olaraq bildirilib ki, payız-qış mövsümünün başlanması ilə əlaqədar olaraq əhali arasında qrip və kəskin respirator virus infeksiyalarına qarşı profilaktik və əksepidemik tədbirlər gücləndirilib.

Bildirilib ki, ağır gedişli kəskin respirator virus infeksiyalı və qripəbənzər əlamətləri olan xəstələrin laborator müayinəsi aparılır. 2024-cü il və 2025-ci ilin ötən dövrü ərzində aparılan müayinələrin nəticələrinə əsasən, ölkə ərazisində metapnevmavirusa yoluxma halları qeydə alınmayıb.

"Hazırda ölkəmizə Səhiyyə Nazirliyinin xətti ilə qripə qarşı kifayət qədər effektiv və təhlükəsiz olan peyvəndlər gətirilib və ambulator-poliklinik yardım göstərən tibb müəssisələrinə paylanılıb. Qripə qarşı peyvənd olunmaq istəyən şəxslər yaşayış və ya iş yeri üzrə əhaliyə ambulator-poliklinik xidmət göstərən dövlət tibb müəssisələrinə müraciət edə bilərlər", - deyə açıqlamada qeyd olunub.

# Sumqayıtda 17 yaşlı yeniyetmə bıçaqla qətlə yetirilib, iki yeniyetmə qardaş tutuldu



**Sumqayıtda qətl hadisəsi olub.**

APA xəbər verir ki, hadisə Kimyaçılar qəsəbəsində baş verib.

2008-ci il təvəllüdlü Emil Elçin oğlu Qələndərov naməlum şəxs tərəfindən bıçaqlanıb.

Polis əməkdaşlarının keçirdikləri tədbirlərlə qətli törətməkdə şübhəli bilinən 2011-ci il təvəllüdlü Ç.Q. və 2010-cu il təvəllüdlü Ö.Q. qardaşları saxlanılaraq istintaqa təhvil veriliblər.

YENİ MÜSAVAT
N 8 (8618) 16 yanvar 2025

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Uşaq və gənclərin fiziki-mənəvi inkişafı

# Gənclər süni intellektin əsirinə çevrilə bilər - təhlükə

## Onların "sağ əli", "köməkçisi" həm də düşmənləridir?

**Son zamanlar gənclər arasında süni intellektin faydalarından yararlananlar çoxdur. Xüsusən də bəzi yeni proqramlar gənclərin işini asanlaşdırır. Kurs işi, diplom işi yazılması, habelə araşdırmaların hazırlanmasında bu proqramdan maksimum yararlananlar var. Amma alimlər sübut edib ki, süni intellektdən artan asılılıq tənqidi təfəkkür qabiliyyətlərinin azalmasına gətirir.**



Bu barədə isveçrəli alimlərin süni intellekt alətlərinin geniş istifadəsinin nəticələri barədə genişmiqyaslı tədqiqatlarından aydın olub. Araşdırmanın nəticələri "Societies" elmi jurnalında dərc edilib. Alimlər bu narahatedici hadisənin səbəbini koqnitiv yükün azalması ilə izah edirlər. Belə ki, süni intellektin istifadəsinin cəlbedici aspektlərindən biri neyron şəbəkələrin insanı əqli səylərdən azad etməsidir. Lakin tədqiqat göstərdi ki, bunun mənfi nəticələri ola bilər.

Tədqiqat zamanı mütəxəssislər təxminən 670 nəfəri sorğu edərək onları üç yaş qrupuna bölüblər: 17-25 yaş, 26-45 yaş, 46 yaş və yuxarı. Əldə edilmiş məlumatların statistik təhlili süni intellekt alətlərinin istifadəsi və tənqidi təfəkkür göstəriciləri arasında əhəmiyyətli mənfi korrelyasiya aşkar etdi. Süni intellektin mütəmadi istifadəçiləri məlumatı tənqidi qiymətləndirmək və refleksiv problem həllində iştirak etmək qabiliyyətinin azaldığını nümayiş etdiriblər.

Xüsusilə narahatedici görünən fakt odur ki, gənc iştirakçılar yaşlı yaş qrupları ilə müqayisədə süni intellekt alətlərindən daha yüksək asılılıq və daha aşağı tənqidi təfəkkür balları göstəriblər. Respondentlərin özləri süni intellekt alətlərinin adi istifadəsi nəticəsində tənqidi təfəkkür bacarıqlarının itirilməsindən narahatlıqlarını ifadə ediblər. Hesabatın müəlliflərinə görə, onların kəşfi təhsil, elm və aktiv əqli fəaliyyət tələb edən digər sahələrdə süni intellektin istifadəsinə yanaşmaları yenidən nəzərdən keçirmək zərurətini göstərir.

### Tələbələr və şagirdlər arasında narahatlıq artıb - səbəb

Süni intellektin təsirinə dair qeyri-müəyyənlik şagirdlər arasında geniş bir narahatlıq dalğası yaradıb. Purdue politexnik orta məktəbinin baş direktoru Keeanna Warren qeyd edir ki, şagirdlər indi təhsilin praktikliyini daha çox şübhə altına alırlar.

"Biz tələbələr arasında narahatlığın artdığını müşahidə etmişik",- deyə Warren bildirib. "Onlar soruşurlar: "Mənə inşa yazmağı öyrədirsiniz? Mən bunu nə vaxt istifadə edəcəyəm?" və ya "Məni təqdimat etməyə öyrədirsiniz? Mən bunu heç vaxt etməyəcəyəm". Sonra isə daha irəli gedib düşünürlər: "Mən nə edəcəyəm?"

Bu narahatlıq yalnız tələbələr arasında deyil. Məzunlar və bilik əsaslı işlərdə çalışan işçilər də özlərini daha az təhlükəsiz hiss edirlər. 2023-cü il "Cengage Group"un əmək bacarıqları hesabatına görə, son məzunların 46 faizi süni intellektin onların iş imkanlarını təhdid etdiyini düşünür, 52 faizi isə iş dünyasına hazırlıq səviyyələrini sorğulayır. ABŞ-da işçilər arasında aparılan "Gallup" sorğusu göstərir ki, texnologiyanın iş yerlərini əvəz edəcəyindən narahat olanların sayı 2021-ci ildən bəri 22 faiz artıb. Bu artım əsasən ali təhsilli işçilər arasında müşahidə olunur.

Süni intellekt təhsil sistemində təcili yeniliklərə ehtiyac olduğunu nümayiş etdirir. Lakin bir çox məktəblər süni intellekti imkan deyil, təhlükə kimi qəbul edir. Bəzi məktəblilər qeyd edirlər ki, müəllimlərinin əksəriyyəti süni intellekt vasitələrindən istifadəni qadağan edir və az bir qismi tələbələri təcrübə etməyə təşviq edir.

Bəzi yenilikçi təhsil işçiləri isə süni intellektin potensialını anlayırlar. Harvard təhsil məktəbinin müəllim heyəti üç əsas məsələni həll etməyi prioritet seçib: süni intellektdən istifadəyə dair siyasətlərin hazırlanması, süni intellektin məhsuldar şəkildə istifadə oluna biləcəyi tapşırıqların yenidən dizayn edilməsi və kursun tədris məqsədlərinin süni intellektin təsiri ilə uyğunlaşdırılması.

"Şagirdlər süni intellektin yalnız icazə verilən deyil, eyni zamanda gözlənilən olduğu bir peşəkar dünya üçün hazırlanmalıdır", - deyə Harvardın dekanı Martin West qeyd edir. Lakin dərs proqramlarının dəyişdirilməsi asan məsələ deyil. K-12 tarix proqramlarında və ya Kaliforniyada riyaziyyat tədrisi ilə bağlı müzakirələr bunun nə qədər çətin olduğunu göstərir.

Şagirdləri süni intellektlə dolu gələcəyə hazırlamaq üçün məktəblər akademik təhsili real dünya təcrübəsi ilə daha sıx şəkildə əlaqələndirməlidir. Orta məktəblər "Ripen" kimi şirkətlərlə əməkdaşlıq edərək tələbələrə praktiki layihələr təqdim edə bilər.

Süni intellektin effektiv istifadəsini öyrətmək də vacibdir. Kaliforniyalı məktəbli Sam Cheng hesab edir ki, təhsil süni intellektlə tənqidi, yaradıcı və şüurlu şəkildə qarşılıqlı əlaqə qurmağı öyrətməyə yönəlməlidir. Digər bir tələbə Beckett Miller qeyd edir ki, süni intellektdən istifadə ideyalarını daha yaxşı ifadə etmək və daha dərindən düşünmək üçün ona kömək edib.

Süni intellektin sürətli inkişafı təhsildə paradiqmanın dəyişdirilməsini tələb edir. Məktəblər tələbələrə yalnız süni intellektdən istifadəni öyrətməklə kifayətlənməməli, həm də tənqidi düşüncə, uyğunlaşma və ömür boyu öyrənmə bacarıqlarını inkişaf etdirməlidir.

**"Bugünkü gənc nəsil üçün iki əsas təhlükə var: şagirdləri sosial mediada, xüsusilə Tiktokun mənfi təsirləri ilə, tələbələri isə mərc oyunlarının cəlbedici, amma məhvedici tələsi ilə üz-üzə qoymuşuq. Hər iki hal onların intellektual və mənəvi inkişafına böyük zərbə vurur".**

**Bu sözləri təhsil eksperti Kamran Əsədov** bildirib. Amma süni intellektin də ziyanları qədər faydaları var. Onun sözlərinə görə, süni intellekt əsasında çalışan platformalar, məsələn, Coursera və Khan Academy kimi sistemlər, tələbələrin öyrənmə sürətinə və bilik səviyyəsinə uyğun tədris materialları təqdim edə bilir. Bu isə fərdi yanaşmanı mümkün edir və tələbələrin daha effektiv öyrənməsinə şərait yaradır.

Dünyanın müxtəlif ölkələrində aparılan tədqiqatlar da bunu təsdiqləyir. Məsələn, 2023-cü ildə ABŞ-da keçirilən araşdırmaya görə, süni intellektdən istifadə edən tələbələr ənənəvi metodlarla öyrənənlərə nisbətən imtahan nəticələrini 15%-ə qədər yaxşılaşdırıblar.

Təhsil eksperti hesab edir ki, süni intellekt texnologiyalarından asılılıq tələbələrdə tənqidi düşünmə və yaradıcı yanaşma bacarıqlarını zəiflədə bilər. Hazır cavablar təqdim edən sistemlər tələbələri problemi özləri həll etməkdən çəkindirir.

Amma müasir texnologiya və sosial şəbəkə seqmentlərinin də ziyanları böyükdür. Belə ki, təhsil üçün vacib olan konsentrasiya və dərin düşüncə qabiliyyətlərini itirən gənclər vaxtlarını mənasız videolarla keçirirlər. Eyni zamanda TikTok vasitəsilə yayılan qeyri-sağlam məzmun onların əxlaqi dəyərlərini zəiflədir.



# Bəzi ərzaqlar bahalaşdı

**Ötən ilin dekabr ayında əvvəlki aya nisbətən ayrı-ayrı ərzaq məhsullarından daha çox bahalaşma yumru düyünün, təzə balığın, pasterizə olunmamış üzlü südün, yumurtanın, zeytun yağının, narın, naringinin, üzümün, heyvanın, xurmanın, almanın, bananın, qozun, fındığın, xiyarın, pomidorun, sarımsağın, soğanın, balqabağın, limonadın qiymətlərində müşahidə olunub.**

Musavat.com xəbər verir ki, bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb.

Qeyd edilib ki, ötən ay ucuzlaşma isə əsasən qarabaşaq və manna yarmasının, çörəyin, mal və qoyun ətinin, kəsmiyin, süfrə marqarininin, qarğıdalı və günəbaxan yağlarının, portağalın, limonun, kələmin, yerkökünün, çuğundurun, kartofun, şəkər tozunun qiymətlərində müşahidə olunub. Digər ərzaq məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməyib.

2023-cü ilin dekabr ayında qeyri-ərzaq məhsulları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100 faiz, əvvəlki ilin dekabr ayına nisbətən 102,7 faiz təşkil edib.

2023-cü ilin dekabr ayında əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,1 faiz, əvvəlki ilin dekabr ayına nisbətən 103,7 faiz təşkil edib. Dekabr ayında əvvəlki ayla müqayisədə əhaliyə göstərilmiş ödənişli xidmətlərdən bahalaşma əsasən taksi nəqliyyatı ilə şəhərdaxili sərnişindaşıma xidmətlərinin və istirahət turlarının qiymətlərində, ucuzlaşma isə hava nəqliyyatı ilə beynəlxalq sərnişindaşıma xidmətlərinin qiymətlərində müşahidə olunmuşdur. Digər ödənişli xidmətlərin qiymətlərində ciddi dəyişikliklər baş verməyib.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Sevinc TELMANQIZI

YENİ MÜSAVAT

Son səhifə

N 8 (8618) 16 yanvar 2025



## Çində 3000 illik şərab tapıldı

**Şərqi Çində arxeoloqlar tərəfindən 3000 il öncə hazırlanmış distillə edilmiş şərab tapılıb. Oxu.Az-ın xəbərinə görə, bu barədə “Sinxua” agentliyi məlumat yayıb. Şərab Cinan şəhərində (Şandunq əyalətinin şərqi) aparılan qazıntılar zamanı aşkarlanıb. Distillə edilmiş spirt gəmidə, Şanq sülaləsinə (e.ə. 1600 - 1046) aid edilən bürünc qabda olub. Gəminin özü hələ 2010-cu ildə tapılıb, lakin arxeoloqlara güclü pas səbəbindən onu açmaq üçün illər lazım olub. Bu kəşf Çində distillə edilmiş spirtli içkilərin istehsalının tarixinin əvvəllər düşünüldüyündən 1000 il əvvəl başladığını göstərir.**



## Diş həkiminin pasiyenti 7 kiloqramlıq piton oldu

**Rusiyada diş həkiminin pasiyenti yeddi kiloqramlıq piton olub. Hadisə Novosibirskdə qeydə alınıb. Bildirilir ki, qısaquyruqlu pitonun sahibəsi heyvanının pis vəziyyətdə olması səbəbindən baytarlara müraciət edib. Müayinə zamanı məlum olub ki, ilanın ağzında ona mane olan şişkinlik var. “Onda stomatit var idi - bu, müxtəlif səbəblərdən yaranan ağız boşluğunun iltihabıdır. Əgər bunu olduğu kimi saxlasaq, yara irinləməyə davam edəcək və ilanı öldürəcək. Biz şanslı idik: irin boynuna getdi, mən onun şişdiyini gördüm və klinikaya yazıldım”, - deyə ilanın sahibəsi bildirib.**

Dərhal mütəxəssisə müraciət edilib, onlar da ilanın dişini və geniş iltihab səbəbindən yaranan irinli kütləni çıxarmağa qərar veriblər. Hazırda ilan evinə qaytarılıb və sahibəsinin sözlərinə görə, özünü yaxşı hiss edir.

# Timsahlar qurbanını cəlb etmək üçün boğulan insan təqlidi etdi



**Sosial şəbəkədə timsahlarla bağlı çəkilən kadrlar böyük populyarlıq qazanıb. Videoda onların boğulan insanın əllərini təqlid etdiyi görünür. Görüntülər İndoneziyadandır. Materialın müəllifi iddia edir ki, yırtıcı bu yolla qurbanlarını suya cəlb edir. Alimlər hələ nəzəriyyəni təkzib və ya təsdiq edə bilmirlər, lakin məlumdur ki, timsahlar tez-tez ov tutmaq üçün hiyləgər üsullardan istifadə edirlər. Məsələn, onlar yuva tikmək üçün material axtaran quşları cəlb etmək üçün başlarına çubuq və budaqlar qoyurlar.**

# İnsanın qocalmasının iki əsas mərhələsi müəyyənləşdi - tədqiqat

**Stanford Universitetinin alimləri insanın qocalma prosesinin iki əsas zirvə nöqtəsini müəyyən ediblər: 44 və 60 yaş. Bu tapıntılar “Nature Aging” elmi jurnalında dərc olunub və bədənimizin əvvəlki tədqiqatlardan fərqli olaraq daha ani və dramatik dəyişikliklərə məruz qaldığını ortaya qoyub.**

Milli.Az “euronews.com” saytına istinadla xəbər verir ki, tədqiqat qrupunun rəhbərlərindən biri, professor Maykl Snayder yaşlanma prosesinin yalnız tədrici dəyişikliklərdən ibarət olmadığını vurğulayıb: “Biz zamanla tədricən dəyişmirik. Həqiqətən də dramatik dəyişikliklər var. Molekulyar səviyyədə dəyişikliklər, xüsusilə 40 yaşın ortaları və 60 yaşın əvvəllərində daha çox müşahidə olunur. Bu, fərqli molekulyar siniflərdə - RNT, zülallar, metabolitlər və mikrobiom - genişmiqyaslı dəyişiklikləri əhatə edir”.

Tədqiqatda 25-75 yaş arası 108 iştirakçıdan götürülmüş qan və bioloji nümunələr analiz olunub. Bu nümunələrdən 135 mindən çox molekul və mikroorqanizm izlənilib, yaşlanma ilə bağlı dəyişikliklərin xəritəsi çəkilib. Ümumilikdə, 250 milyard məlumat nöqtəsi analiz edilib və nəticələr göstərib ki, molekulların 81 faizi 44 və 60 yaşda əhəmiyyətli dəyişikliklərə məruz qalır. Tədqiqatın nəticələri yaşlanmanın müxtəlif aspektlərinə yeni baxış gətirib.

**44 yaşda baş verən dəyişikliklər:**

Molekulyar səviyyədə sürpriz olaraq qadın və kişilərdə eyni vaxtda baş verən dəyişikliklər müşahidə olunub. Əvvəlcə qadınlarda menopozla əlaqəli olduğu düşünülən bu dəyişikliklərin kişilərdə də eyni dərəcədə baş verdiyi təsbit olunub. Bu, digər potensial amillərin əhəmiyyətini vurğulayır.

**60 yaşda baş verən dəyişikliklər:**

İmmunitet funksiyasının zəifləməsi, xroniki xəstəliklərin artması və yaşa bağlı digər proseslərlə üst-üstə düşür.

Maddələr mübadiləsi, ürək-damar sağlamlığı, dəri və əzələ funksiyaları kimi aspektlərdə də molekulyar dəyişikliklər öz əksini tapır. Tapıntılar yaşlanma ilə bağlı xəstəliklərin - məsələn, ürək-damar xəstəlikləri və Alzheimerin niyə birdən ortaya çıxdığını izah etməyə kömək edir. Professor Maykl Snayder bu məlumatların erkən müdaxilə üçün istifadə edilə biləcəyini vurğulayıb:

40 yaşlarında statin istifadəsinə başlanılması xolesterolun yığılmasının qarşısını ala bilər.

60 yaşında immunitet sistemini gücləndirən tədbirlər böyrək və immunitet zəifliyinin təsirlərini azalda bilər.

Bu tədqiqat qocalma prosesinin daha yaxşı anlaşılmasına və fərdi tibbi yanaşmalarda yeniliklərə yol açma potensialına malikdir.

## Bunları bilirsinizmi?

Yanvar

* Stalinin 70 illiyinə bağışlanmış hədiyyələrin siyahısı elə uzundur ki, onu qəzetlər 1949-cu ilin dekabrından 1953-cü ilin martınadək dərc etməli olmuşdular.
* İsti su soyuq sudan daha ağırdır.
* Həşəratlar yatmır.
* V.Harvey qan dövranı haqqında kiçik kitabçası üzərində düz 13 il işləmişdi.
* Bambuk dünyanın ən sürətlə böyüyən bitkisidir, bir gündə 90 sm-ə qədər uzanır.
* Bir insan həyatı boyunca təxminən 22 kiloqram dəri itirir.
* Asqırarkən ürəyiniz də daxil olmaqla bütün orqanlarınızın funksiyaları dayanır.
* Dünyada baş verən müharibələrin əsas səbəbi təbii ehtiyatları əldə etməkdir.
* Ən çox Oskar qazanan filmlər: “Ben Hur”, “Titanik” “Üzüklərin kralı: Kral qayıdır” filmləridir. Hər biri 11 Oskar mükafatçısı olub. “Ben Hur” bu Oskarları 12 nominasiyadan, “Titanik” 14, “Üzüklərin kralı: Kral qayıdır” filmi isə elə 11 nominasiyadan əldə ediblər.
* N.Kopernik öz traktatını yaratmaq üçün otuz ildən çox vaxt sərf etmişdir.
* Səudiyyə Ərəbistanında arvadın ərinə qəhvə hazırlamaması boşanmaya səbəb ola bilir.
* Balinalar gözləri açıq yatır.
* Qitə adlarının hamısı eyni hərflə başlayıb, eyni hərflə bitir.
* Yellənən kresloda heç durmadan yellənmək rekordu 440 saatdır.
* Rusiyanın dörddə biri meşələrlə örtülüdür.
* 1932-ci ilin qışı elə soyuq olub ki, hətta Niaqara şəlaləsi bütünlüklə donub.
* Əgər bir insan fasiləsiz olaraq 8 il 7 ay qışqıra bilsəydi, bir qəhvəni isidə biləcək enerji yarada bilərdi.

## Türkiyədə sahibkar öz mağazasını qarət etdi



Türkiyənin Samsun şəhərində qəribə hadisə baş verib.

Bu barədə Oxu.Az “Sondakika.com”a istinadən xəbər verir.

Məlumata görə, polis idarəsinə yaxın ərazidə yerləşən mağazalardan birinin qarət olunduğu ilə bağlı xəbər daxil olub. Marketdən 500 qutu siqaret, 90 min lirə (4 min 400 manat), bir müşahidə kamerası və bir POS cihazının oğurlandığı bildirilib.

Araşdırma zamanı mağaza sahibinin verdiyi ifadə ilə təhlükəsizlik kamerasının qeyd etdiyi görüntülər arasında ziddiyyət olduğu ortaya çıxıb. Marketin arxa divarının dağıdıldığı, polad seyfin qapısının qəsdən açıq qoyulduğu və oğurluq görüntüsü yaratmaq üçün bilərəkdən qarışıqlıq yaradıldığı müəyyən edilib.

Nəticədə məlum olub ki, obyekti qarət edən elə mağaza sahibinin özüdür. Görüntülərdə onun iş yerinin arxa divarından içəri girdiyi, oğurluğu həyata keçirdiyi, daha sonra da ön qapıdan çıxıb maşına mindiyi və qaçdığı əks olunub.

Mağaza sahibi saxlanılıb və o, külli miqdarda borcunun olduğunu, sığorta şirkətindən təzminat almaq üçün hadisəni törətdiyini etiraf edib.

Mağaza sahibinin hətta sığorta şirkətinə saxta ekspertiza rəyi hazırladığı da ortaya çıxıb.

Şübhəli şəxs barəsində “Ağır dərəcədə fırıldaqçılıq” və “Şəxsi sənədləri saxtalaşdırma” maddələri üzrə ittiham irəli sürülüb. İstintaq davam edir.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Son dakika” MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 1.500